

**“Biz haqq yolundayıq. Bugünkü Azərbaycan, bugünkü Azərbaycan reallıqları, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, inkişaf, tərəqqi, vətəndaş həmrəyliyi, bax, bizim böyük dəyərimizdir və bunu Azərbaycan xalqı öz zəhməti, istedadı hesabına əldə edib.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*İyul - Sentyabr (2017-ci il)*



**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cuil tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 16.10.2017
60x84 1/8 formatda 68 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə



© "Azərbaycan Prokurorluğu", 2017

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirlib

**15** Prezident İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## RƏSMİ TƏDBİRLƏR

**16** Baş Prokurorluqda geniş əməliyyat müşavirəsi keçirilib

**20** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**23** Baş Prokurorluğun nümayəndə heyəti Rusiya Federasiyası İstintaq Komitəsinin yaranmasının 10 illiyinə və Rusiya istintaq orqanlarının 300 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edib

**24** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**26** Xanlar Vəliyev – Cinayət qanununun geriyə qüvvəsi ilə əlaqədar cinayət-prosessual hüquq münasibətlərinin tənzimlənməsinə dair bəzi məsələlər

**31** Nazir Bayramov – Sürücülük hüququnun məhdudlaşdırılmasının cinayət-hüquqi əhəmiyyəti barədə

## İCTİMAİYYƏTƏ HESABAT

**34** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2017-ci ilin I yarımili ərzində görülmüş işlərlə bağlı hesabatla çıxış edib

**39** Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahına və profilaktiki tədbirlərə yönəldirlər

**40** Naxçıvan şəhər prokurorluğunda "Ekstradisiya, beynəlxalq hüquqi yardım göstərilməsi və cinayət təqibinin həyata keçirilməsi" mövzusunda seminar keçirilib

**40** Şərur rayon prokurorluğunda "Asılma zamanı, asfiksiya nəticəsində baş verilmiş ölüm hallarında hadisə yerinə baxış və digər istintaq hərəkətlərinin metodika və taktikası" mövzusunda seminar keçirilib

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**41** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəhbərliyi Moldovada səfərdə olub

**42** Baş Prokurorluğun nümayəndə heyəti Pekində Beynəlxalq Prokurorlar Assosiasiyasının illik konfransı və ümumi yığıncağında təmsil olunub

**43** Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

**43** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə səmərəli əməkdaşlıq davam edir

## HÜQUQİ AKTLAR

**45** Qanunvericiliyə dəyişikliklər

**62** Konstitusiya Məhkəməsinin Plenum qərarları

**67** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi



– İlin birinci yarısı arxada qalıb. Bu gün biz altı ayda görülən işlərə yekun vuracağıq, eyni zamanda, görüləcək işlər haqqında danışacağıq. Bütövlükdə Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz daha da güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib.

Əfsuslar olsun ki, 2017-ci ildə dünyada çox təhlükəli meyillər daha da güclənir. Həm bizim bölgəmizdə, həm dünyada narahatedici məqamlar kifayət qədər çoxdur. Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar – əfsuslar olsun ki, bugünkü beynəlxalq mənzərənin əlamətləri bunlardır. Azərbaycan isə uğurla inkişaf edir. Azər-

baycanda sabitlik möhkəmlənir. Sabitliyin mənbəyi Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir.

Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı öz gələcəyini təhlükəsizlik, əmin-amanlıq şəraitində qurur.

Bu ilin altı ayında bizim beynəlxalq əlaqələrimiz daha da fəallaşıb. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Dostlarımızın sayı artır və beynəlxalq təşkilatlarda da bizim fəaliyyətimiz çox müsbətdir. Mən ilin altı ayında 10 xarici səfər etmişəm – beş Avropa ölkəsinə, beş müsəlman ölkəsinə. Davos və Münxendə keçirilən dünyanın aparıcı iqtisadi, siyasi və təhlükəsizlik konfranslarında Azərbaycan ləyaqətlə təmsil olunmuşdur. Eyni zamanda, mənim Avropa Komissiyasına çox uğurlu səfərim olubdur, Fransaya və Polşaya rəsmi səfərlər etmişəm. Müsəlman ölkələrinə gəldikdə isə, İrana, Qətərə, Pakistana, Səudiyyə Ərəbistanına, Türkiyəyə səfərlər etmişəm. Azərbaycan səfər etdiyim bütün bu ölkələrlə əlaqələrini daha da genişləndirir, möhkəmləndirir. Bu səfərlərimin coğrafiyası əslində bizim xarici siyasətimizin nə qədər düzgün və milli maraqlara xidmət edən siyasət olduğunu bir daha təsdiqləyir. Bununla bərabər, bu ilin birinci yarısında doqquz xarici dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Bu da çox gözəl göstəricidir.

Bu il Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Əlbəttə ki, mötəbər beynəlxalq tədbirlərin keçirilməsi hər bir ölkə üçün önəmlidir. Bu tədbirlər əslində ölkəyə olan münasibəti, hörməti əks etdirir. Azərbaycanda keçirilən mötəbər tədbirlər ən yüksək səviyyəli tədbirlərdir. Onların arasında əsas tədbirləri qeyd etmək istərdim. Bu il Bakıda V Qlobal Forum keçirilibdir. Bu, artıq dünya miqyasında çox dəyərli, səviyyəli bir tədbirdir. Əgər Davosda daha çox iqtisadi, Münxendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda daha çox siyasi və eyni zamanda, bütün digər məsələlər müzakirə edilir. Forumda bir neçə ölkənin dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, ictimai xadimlər iştirak etmişlər. Qlobal Bakı Forumu artıq dünya xəritəsində özünəlayiq yerini tuta bilmişdir.

Bu il IV Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bu da bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl ilk dəfə keçirilmiş tədbirdir. Builki tədbirdə Azərbaycanla bərabər dünyanın altı aparıcı beynəlxalq təşkilatı Forumun təşkilatçısı kimi çıxış etmişdir. Forumda aparılmış müzakirələr və qəbul edilmiş qərarlar əlbəttə ki, multikulturalizm dəyərlərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan Forum çərçivəsində bir daha multikulturalizmin mərkəzlərindən biri kimi qeyd olundu. Əlbəttə ki, belə tədbirlərin ölkəmizdə keçirilməsi həm bizim beynəlxalq nüfuzumuzu artırır və eyni zamanda, bu tədbirlər dünyada gedən müsbət proseslərə öz töhfəsini verməkdədir.

Bu il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu da qlobal tədbirdir. Biz həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını ən yüksək səviyyədə keçirmişik, minlərlə idmançı, qonaq bizim gözəl Bakı ilə tanış olub, şəhərimizə, ölkəmizə heyran qalıb. Bizim təşkilatçılıq qabiliyyətimiz də ən yüksək səviyyədədir. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan milli komandası bu Oyunlarda birinci yeri tuta bilmişdir. Bu da bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Azərbaycan Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerdədir. O ki qaldı, Olimpiya Oyunlarına, son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında on dördüncü ölkə idi.

Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilmişdir. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Tramp məktub göndərmişdir. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda, Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır. Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur.

Ölkəmizdə keçirilmiş bu tədbirlər, – mən ancaq əsas tədbirləri qeyd etdim, – əslində, Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərir.

Bizim xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu ilin birinci yarısında bu istiqamətdə – danışıqlar istiqamətində heç bir nəticə əldə edilməmişdir. Bununla bərabər, hesab edirəm ki, 2017-ci ildə münaqişənin həlli ilə bağlı önəmli hadisələr də baş vermişdir və Azərbaycanın haqlı mövqeyi daha da böyük dəyər qazanmışdır.

Mən bir neçə faktı Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. İlk növbədə, bu il qondarma separatçı rejim Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda növbəti qondarma, qanunsuz, dırnaqarası referendum keçirmişdir. Bu "referendum"un keçirilməsi əslində onların böyük səhvidir, daha doğrusu, axmaqlığıdır. Onların bir qədər ağlı olsaydı, heç vaxt buna getməzdilər. Çünki bəri başdan bəlli idi ki, dünya birliyi bu qondarma tədbiri tanımayacaq. Belə də oldu. Minsk qrupu bəyanat verdi, onun həmsədrləri – Amerika, Fransa, Rusiya "referendum"u tanımadılar. Avropa İttifaqı referendumu tanımayıb. Qonşu ölkələr – İran, Gürcüstan "referendum"u tanımayıb. Digər ölkələr də oxşar bəyanatlarla çıxış etdilər. Bu qondarma "referendum"un tanınmaması Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyir. Bütün dünya və münaqişənin həlli ilə bilavasitə məşğul olan ölkələr bu münasibətləri ilə bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həqiqətdir, bu, tarixi həqiqətdir və əlbəttə ki, bu həqiqət bir daha qeyd olundu. Bu, Ermənistanın növbəti biabırçılığı idi.

Bilirsiniz ki, aprel hadisələrindən sonra Ermənistan danışıqların bərpa edilməsi üçün bir neçə şərt qoyurdu və bunu açıq şəkildə bəyan edirdi. Mən o vaxt yenə də görürdüm, bilirdim ki, bu, növbəti axmaqlıqdır. Çünki gec-tez onlar danışıqlar masasına qayıdacaqlar, sadəcə olaraq, özlərini olmayan hörmətdən növbəti dəfə salacaqlar. Belə də oldu. Dünən Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşüblər. Danışıqlar prosesi bərpa edilib, heç bir şərt Azərbaycan tərəfindən qəbul edilməyib, danışıqlar prosesi qeyd-şərtsiz bərpa edilibdir.

Bu, bizim mövqeyimizdir, biz həmişə demişik ki, belə olmalıdır. Bu, Minsk qrupunun həmsədr ölkələrinin də mövqeyidir. Ona görə işğalçını məcbur etdilər və o, danışıqlar masasına qayıdıb. İndi məsələ ondan ibarətdir ki, tezliklə substantiv, yəni, mənalı, konkret danışıqlar bərpa edilməlidir. Danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad edilməlidir, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim mövqeyimiz bundan ibarətdir. Bundan kənarda heç bir həll yolu mümkün deyil.

Ermənistan isə həmişə çalışırdı ki, həm danışıqları pozsun və onlara təzyiq artdıqca təxribat törətsin. Bunu biz yaxın tarixdən yaxşı bilirik. Hələ 1990-cı illərin sonlarında Ermənistan parlamentində terror aktı törədilmişdir və bu da ovaxtkı Ermənistan rəhbərliyi üçün bir bəhanə idi ki, danışıqlar pozulsun. Belə də oldu. 2014-cü ildə Fransada keçirilmiş danışıqlardan dərhal sonra Ermənistan növbəti hərbi təxribata əl atdı, Ağdam rayonunda hərbi təlimlər təşkil etdi. Bizim mövqelərimizə helikopterlər hücuma keçdi və onlardan biri Azərbaycan Ordusu tərəfindən məhv edildi.

2016-cı il martın sonunda Vaşinqtonda nüvə sammitində mən də iştirak edirdim, Ermənistan prezidenti də. O vaxt Ermənistan prezidentinə təzyiqlər göstərilirdi ki, məsələ tezliklə öz həllini tapsın. Danışıqları pozmaq üçün aprel hadisələri törədildi, bizə qarşı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Bu cavab nəticəsində bu gün bizim bayrağımız Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır.

O vaxtdan bu günə qədər danışıqlar aparılmırdı və Ermənistana təzyiq artırdı. Danışıqlara başlamamaq üçün onlar keçən ay növbəti hərbi təxribat törətdilər, bir əsgərimiz həlak oldu. Yenə də Azərbaycan Ordusu onları cəzalandırdı. Azərbaycan Ordusunun zərbəsi nəticəsində bir çox işğalçı məhv edildi. Növbəti təxribat bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş verdi. Bu, hərbi cinayətdir. Bu, erməni faşizminin təzahürüdür və bu cinayətə görə Ermənistan öz cavabını almışdır. Bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.

Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq. Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəh-

bərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycan mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni, Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı, danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq.

Həmişə olduğu kimi, biz bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Yeni silahlar, ən müasir texnika alınır. Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir.

Məcburi köçkünlərin problemləri həmişəki kimi bu il də diqqət mərkəzində olubdur. Son illər yüzə yaxın qəsəbə salınmışdır. Ancaq onların arasında bu il açdığımız Cocuq Mərcanlı qəsəbəsi xüsusi yer tutur. Bu, tarixi hadisədir. Bu, bizim şanlı tariximizə qızıl hərflərlə yazılan hadisədir. Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Orada 50 ev, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilib, yol çəkilib, bütün infrastruktur yaradılıb. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti Sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrılmışdır. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır.

Digər layihələr icra edilir. Tərtər rayonunda böyük şəhərcik salınır. Sumqayıt və Bakı şəhərlərində həm yeni şəhərciklər tikilir, həm köçkünlər üçün mənzillər alınır və onlara verilir. Masazırda, Sumqayıtda, Qaradağ rayonunda belə təşəbbüslər irəli sürülür. Onların arasında Qaradağ layihəsini xüsusilə qeyd etmək istərdim. Çünki bu, bir yenilikdir, yeni təşəbbüsdür. Bu, özəl sektor tərəfindən inşa edilən böyük şəhərcikdir. Orada min köçkün ailəsi məskunlaşacaq və bu, çox gözəl nümunədir.

Bu gün Azərbaycanda yaratdığımız şərait nəticəsində yüzlərlə, minlərlə sahibkar öz fəaliyyətini genişləndirir. Bizim sahibkarlarımız böyük imkanlara malikdirlər. Sahibkarların sosial məsuliyyəti də yüksək səviyyədə olmalıdır. Bu şəraiti onlar üçün biz yaratmışıq. Çünki indi Azərbaycanda sabitlik, sürətli inkişaf olmasaydı, bizim sahibkarlar bu qədər inkişaf edə bilməzdilər. Eyni zamanda, dövlət onlara güzəştli şərtlərlə kreditlər verir, onların məsələləri həll olunur. Mən sahibkarlarla dəfələrlə görüşmüşəm. Hər il bir neçə dəfə görüşürəm və tam dəstək göstərilir. Onlar da öz növbəsində sosial məsuliyyəti dərk etməlidirlər. Ona görə, Qaradağ rayonunda sahibkarlar tərəfindən öz vəsaitləri hesabına 1000 mənzillik şəhərciyin tikilməsi çox yaxşı təşəbbüsdür. Mən bunu bəyənirəm, alqışlayıram. Bu, bütün sahibkarlara nümunə olmalıdır. Mən bundan sonra sahibkarların fəaliyyətini, o cümlədən bu göstəriciyə görə də qiymətləndirəcəyəm.

Əlbəttə ki, bütün bu məsələlərin həll edilməsi bir daha bizim dövlətimizin siyasətini, niyyətini

ortaya qoyur. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Bu il bu məsələlərlə bağlı ciddi addımlar atılmışdır. Beş milyondan çox insan bu il pulsuz müayinədən keçmişdir. Bilmirəm, hansı ölkədə belə bir təşəbbüs var ki, insanlar, əhalinin böyük əksəriyyəti il ərzində pulsuz müayinədən keçsin.

Sosial infrastruktur obyektlərinin tikintisi aparılmışdır və aparılır. Birinci altı ayda 26 tibb müəssisəsi tikilmiş və təmir edilmişdir. İyirmidən çox modul tipli məktəb tikilmişdir. İlin sonuna qədər onların sayı 100-ə çatmalıdır. Yəni, sosial infrastruktur məsələlərinin həlli daim diqqət mərkəzindədir.

Əlbəttə ki, bütün bu uğurlara nail olmaq üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Altı ayın göstəriciləri məni çox qane edir. Qeyri-neft iqtisadiyyatımız altı ayda 1,7 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Mən xüsusilə qeyri-neft iqtisadiyyatını qeyd edirəm. Çünki ümumi iqtisadi göstərici, yəni, ümumi daxili məhsulun göstəriciləri daha çox neftin hasilatına və neftin qiymətinə bağlıdır. Bu da dəyişir. Ona görə, bu, bizim gördüyümüz işlərə qiymət vermək üçün əsas amil kimi qəbul edilə bilməz.

Qeyri-neft iqtisadiyyatımızda 1,7 faiz artım bizim apardığımız iqtisadi islahatların nəticəsidir. Hesab edirəm ki, bu, xüsusilə indiki şəraitdə çox yaxşı göstəricidir. Qeyri-neft sənayesi daha çox artıb. Burada artım 4,4 faizdir. Hesab edirəm ki, bu da mümkün olan ən gözəl göstəricidir. Bu, onu göstərir ki, islahatlar və apardığımız siyasət öz nəticəsini verir.

Bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Bu gün sərmayə qoyuluşu demək olar ki, bütün ölkələrdə azalır. Çünki maliyyə sıxıntıları, problemlər var. Amma Azərbaycana sərmayə qoyulur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Nəyə görə? Təkcə ona görə yox ki, bizdə yaxşı investisiya iqlimi var. Ona görə ki, Azərbaycan bu gün sabitlik məkanıdır və investorlar ancaq sabit olan yerlərə sərmayə qoyurlar. Sabit olan ölkələrin sayı kəskin azalır. Ona görə əminəm ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək.

Bizim valyuta ehtiyatlarımız artıb və bu günə 40,6 milyard dollar təşkil edir. Bu da çox gözəl göstəricidir. Çünki ilin əvvəlindən bu günə qədər valyuta ehtiyatlarımız təxminən 3 milyard dollar artıb. Baxın, neftin qiyməti kəskin şəkildə düşüb. Sonra isə müəyyən dərəcədə qalxıb. Yenə də düşmə ehtimalı var. Amma bizim valyuta ehtiyatlarımız artır. Nəyə görə? Düşünülmüş siyasətə görə. Ona görə ki, biz heç vaxt populist işlərlə məşğul olmamışıq. Biz hər zaman ölkəmizin uzunmüddətli inkişafı ilə məşğul olmuşuq. Biz həm qənaət etdik, həm islahatlar apardıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə vəsait ayırdıq. Əlbəttə ki, biz idxalı azaltmışıq, ixracı isə artırmışıq. Büdcə ilə bağlı heç bir problem yoxdur. Ona görə, Neft Fondundan büdcəyə transferlər də azaldı. Yəni, ilin altı ayında valyuta ehtiyatlarının 3 milyard dollar artması mükəmməl nəticədir.

Bu il 122 min yeni iş yeri açılmışdır ki, onlardan 101 mini daimi iş yeridir. Onu da qeyd etməliyəm ki, 24 min iş yeri bağlandı. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri var. Bu, əslində daimi prosesdir. Ancaq biz rəqəmlərə baxanda, – 122 min iş yeri açılıb, 24 min iş yeri isə bağlanıb, – əlbəttə, görürük ki, yenə də iş yerlərinin açılması prosesi uğurla gedir. Ona görə də bizdə işsizlik aşağı səviyyədədir.

Xarici ticarət dövriyyəsinin göstəriciləri də müsbətdir. Bu ilin altı ayında ixrac 36 faiz artıb. Burada da ən önəmlisi qeyri-neft ixracıdır. Qeyri-neft ixracı altı ayda 27 faiz artıb. Bax, budur gördüyümüz işlərin nəticələri. Bununla bərabər, idxal 15 faiz azalıbdır. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir. Kənd təsərrüfatı da 2,2 faiz artıbdır.

Bu göstəricilər, – yəni, bunlara heç bir şərh verməyə ehtiyac yoxdur, – dünya miqyasında bu gün ən gözəl göstəricilərdir. Bunu o ölkə əldə edib ki, biz hələ enerji amilindən asılıyıq. O ölkə əldə edib ki, onun gəlirləri son iki il ərzində üç-dörd dəfə azalıb. Bax, budur bizim siyasətimiz, gördüyümüz işlər və əldə etdiyimiz nəticələr.

***

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağirov, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış etdilər.

***

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi



– Mən ilin əvvəlində demişdim ki, 2017-ci il iqtisadi inkişaf ili olmalıdır. Belə də oldu. Artıq bunu demək olar. Düzdür, biz hələ gələcək aylarda fəal işləməliyik, işləyəcəyik. Ancaq artıq əldə edilmiş nəticələr və giriş sözümdə səsləndirdiyim rəqəmlər deməyə əsas verir ki, bu il inkişaf ili olacaqdır. Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili olmuşdur. Bu il isə inkişaf ili olacaq. Əminəm ki, bundan sonrakı illərdə də Azərbaycan öz iqtisadi potensialını daha da gücləndirəcək.

Uğurlu iqtisadi islahatları və iqtisadi siyasətimizi davam etdirmək üçün əlbəttə ki, maliyyə və iqtisadi sabitlik olmalıdır. Bu, əldə edilibdir. İlin əvvəlindən makroiqtisadi vəziyyət sabitdir. Düzdür, ilin ilk aylarında qiymət artımı müşahidə olunurdu. Ancaq son aylar ərzində demək olar ki, qiymətlər sabitləşib. İstehlak qiymətlərinə daim nəzarət olmalıdır ki, süni qiymət artımına yol verilməsin. Buna heç bir əsas yoxdur. Çünki makroiqtisadi sabitlik təmin olunur. Manatın məzənnəsi neçə aydır ki, sabitdir. İdxaldan asılılıq azalır və tələbat daha çox yerli istehsal hesabına ödənilir. Bir sözlə, makroiqtisadi sabitlik məsələləri həmişəki kimi diqqətdə olacaq və əminəm ki, ilin sonuna qədər hər hansı bir problem olmayacaq. Mən artıq qeyd etdim, bizim valyuta ehtiyatlarımız artır, xarici ticarət dövriyyəsinin müsbət saldosu 6 ayda təxminən 2 milyard dollara yaxındır. Ona görə, bizim kifayət qədər güclü iqtisadi imkanlarımız və valyuta ehtiyatlarımız var. Azərbaycan adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə qabaqcıl ölkələr sırasındadır. Valyuta ehtiyatlarının dövlət xarici borcuna olan nisbəti də Azərbaycanı dünya miqyasında ön sıralara çıxarır. Bizdə valyuta ehtiyatları dövlət xarici borcundan 4-5 dəfə çoxdur.

Növbəti dövr üçün prioritetlər dəyişməz olaraq qalır. Qeyri-neft sektorunun inkişafı bizim prioritetimizdir. Səsləndirdiyim rəqəmlər məhz bu siyasətin təzahürüdür. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı istiqamətində çox ciddi addımlar atılır, proqramlar icra edilir. Əvvəlki dövrdə proqram kimi təqdim etdiyim layihələr artıq reallaşır. Xüsusilə sənaye parklarının yaradılması uğurla gedir. Sumqayıt Sənaye parklarında rezidentlərin sayı, investisiyaların həcmi artır və maraq da çox böyükdür. Orada böyük sənaye kompleksləri yaradılır və dövlət öz tərəfindən lazım olan bütün infrastruktur layihələrini icra edib.

Mingəçevir Sənaye Parkında 9 zavod tikiləcəkdir. Bu zavodların fəaliyyəti nəticəsində 5 mindən çox iş yeri yaradılacaqdır. Ümid edirəm ki, ilin sonunda birinci zavodun açılışı da olacaq və Mingəçevir böyük sənaye şəhəri kimi özünün imkanlarını genişləndirəcək. Balaxanı Parkında 5 zavod fəaliyyətə hazırdır. Neftçala Sənaye Zonasında yaxın vaxtlarda iki müəssisə fəaliyyətə başlayacaq. Pirallahı adasında iki dərman zavodunun təməli qoyuldu. Masallı Sənaye Zonasında isə artıq torpaq sahəsi ayrılıb və 30 milyon manatdan çox investisiya təklifi qəbul edilib. Bax, bu, artıq gördüyümüz işlərin gözəl təzahürüdür. Əminəm ki, bütün rayonlarımızda tapşırıq verdiyim kimi, tezliklə sənaye zonaları yaradılacaqdır.

Aqrar sahədə yeni aqroparkların yaradılması sürətlə gedir. Bu proses geniş vüsət almışdır. Bu günə qədər bizim təşəbbüsümüzlə və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılmışdır. İndi 38 böyük aqropark yaradılır. Özəl sektor bizim təşəbbüsümüzə çox məsuliyyətlə yanaşdı. Tezliklə 38 aqroparkın yaradılması bizim ixrac potensialımızı böyük dərəcədə artıracaqdır.

Biz pambıqçılığın şöhrətini bərpa etdik. Artıq pambıqçılıqla məşğul olmaq istəyənlərin sayı

artır. Bu, pambıqçılıq rayonlarında işsizliyi demək olar ki, tamamilə aradan qaldırmaq üçün yaxşı şərait yaradır. Əgər 2015-ci ildə 35 min ton pambıq tədarük edilmişdisə, keçən il bu rəqəm təxminən 90 min tona çatıbdır. Keçən il 51 min hektarda pambıq əkilmişdisə, bu il 136 min hektarda pambıq əkilibdir. Biz əkin sahələrini təqribən 3 dəfə artırmışıq. Əgər biz orta məhsuldarlığı 20 sentner götürsək, bu il 260-270 min ton pambıq gözlənilə bilər. Yəni, bu, çox da ola bilər, az da. Bu, artıq hava şəraitindən və o cümlədən texniki xidmətdən asılıdır. Amma hər halda biz artıq pambıqçılıqda çox ciddi dönüş yarada bildik. Pambıq həm gözəl ixrac məhsuludur, dünya birjalarında satılır, eyni zamanda, Mingəçevir Yüngül Sənaye Parkının fəaliyyəti üçün də resurs bazasıdır. Biz əlbəttə, çalışacağıq ki, hazır məhsulu ixrac edək.

İyirmidən çox rayonda pambıq becərilir. Bir daha qeyd etməliyəm ki, həmin rayonlarda bizim üçün ənənəvi olan bu sahəyə çox böyük maraq var. Bizim bu təşəbbüsümüz çox yüksək qiymətləndirilir.

Biz keçən ildən baramaçılıqla çox ciddi məşğul olmağa başlamışıq. Biz əvvəlki illərdə bu sahəni demək olar ki, itirmişdik. 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdi. Bu sahənin itirilməsi çox böyük problemlər yaratdı. Həm Şəki ipək kombinatı demək olar ki, fəaliyyətini dayandırdı, – orada yüzlərlə insan işləyirdi, – həm də kəndlərdə yaşayan, baramaçılıqla məşğul olan kəndlilər bu imkanlardan məhrum oldular. Biz keçən il bu sahədə operativ qaydada ciddi dönüş yarada bildik. Lazımi materialları idxal etdik, tinglər gətirdik. Keçən il 70 ton barama tədarük edilmişdir. 200 kiloqram hara, 70 ton hara? Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il 244 ton yaş barama tədarük edildi. Yəni, keçən ilə nisbətən 3,4 dəfə artım var. Otuz rayonda baramaçılıq inkişaf edir və 739 kənddə insanlar baramaçılıqla məşğul olurlar. Yəni, bu sahə çox gəlirli sahədir, o qədər də böyük zəhmət tələb edən sahə deyil. Qısa müddət ərzində insanlar yaxşı pul qazanırlar və yerində də pulunu alırlar. Ona görə, baramaçılığın inkişafına verdiyimiz təkan əminəm ki, çox böyük nəticəyə gətirib çıxaracaq. Bizim təbii şəraitimiz elədir ki, ölkəmizin əksər yerlərində baramaçılığın yaxşı perspektivləri var. Dövlət öz dəstəyini bundan sonra da göstərəcək. Bu il mənim Sərəncamımla Prezidentin ehtiyat fondundan 4,5 milyon manat vəsait ayrıldı. Bu vəsaitlə ilin sonuna qədər Qax Barama Damazlıq Mərkəzi yaradılacaqdır. Vaxtilə Qaxda belə mərkəz olubdur. İndi o, yararsız vəziyyətə düşüb, həm dağılıb, həm də orada heç bir avadanlıq yoxdur. İndi ən müasir damazlıq mərkəzi yaradılacaq ki, biz lazım olan o materiallardan da, onların idxalından da asılılığı aradan götürək.

Şəki ipək kombinatı indi daha böyük həcmlə işləyir. Elə etməliyik ki, Şəki ipək kombinatı tam gücü ilə və ilboyu işləsin. Əkilən tut tingləri və apardığımız siyasət əminəm ki, yaxın gələcəkdə ona gətirib çıxaracaq ki, Azərbaycanda 1000 tondan çox barama tədarük ediləcək. Yenə də deyirəm, bunun çox böyük perspektivləri var. Mən indi rəqəm səsləndirmək istəmirəm. Hər halda dövlət öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi.

Bununla bərabər, biz demək olar ki, təqribən böyük hissəsi itirilmiş tütünçülüyü də bərpa edirik. On üç rayonda tütünçülüklə məşğul olurlar. Keçən ilə nisbətən tütünçülük üçün nəzərdə tutulan əkin sahələri 35 faiz artıb. İndi 3200 hektarda tütün becərilir. Bu sahə daha da geniş ola bilər. Çünki tütünçülüklə məşğul olan bu 13 rayonda kifayət qədər böyük torpaq sahələri var. Tütünçülük də çox gəlirli sahədir. Dövlət yenə də öz dəstəyini göstərir, subsidiyalar verilir. Eyni zamanda, tütünün ixracı ilə bağlı dövlət öz imkanlarını ortaya qoyur. Mən əvvəllər də demişəm, biz, əlbəttə, tütünü ixrac etməliyik. Ancaq hazır məhsulu ixrac etsək daha yaxşı olar. Bu məqsədlə işlər gedir. İndi yeni tütün fabriklərinin yaradılması istiqamətində addımlar atılır. Ümid edirəm ki, bu addımlar uğurlu olacaqdır və biz hazır məhsulu dünya bazarlarına çıxaracağıq.

Çayçılığın bərpası istiqamətində işlər gedir. Düzdür, Azərbaycan çayı bu gün xarici ölkələrdə tanınır. Biz çayı ixrac edirik. Ancaq onu da bilməliyik ki, biz xammalı da idxal edirik. Ona görə, yeni çay plantasiyalarının salınması və müasir texnologiyaların gətirilməsi nəticəsində biz daxili xammal hesabına daha çox çay istehsal edə biləcəyik. Yeni texnologiyalar məhsuldarlığı bir neçə dəfə artıra bilər. Bu sahəyə də cənub zonasında çox böyük maraq var.

Eyni zamanda, cənub zonasında hazırda çəltikçilik də çox geniş vüsət alır. Buna da çox böyük maraq var. Dövlət xüsusi texnika alıbdır. Çünki çəltikçilik çox böyük əziyyət, zəhmət tələb edən bir sahədir. Fermerlərin işini yüngülləşdirmək üçün müasir texnika alınıb gətirilibdir ki, çəltikçilik sahəsi əziyyətsiz inkişaf etsin.

Burada artıq zeytunçuluqla bağlı məlumat verildi. Biz keçən il 300 ton zeytun ixrac etmişik.

Ancaq zeytun ixracı, əlbəttə ki, 50 milyon dollar səviyyəsində ola bilər. Bizim təbii iqlimimiz, şəraitimiz və ənənələr buna imkan verir. Sadəcə olaraq işlər düzgün qurulmalıdır və qurulur. Əgər ehtiyac olarsa yeni zeytun emalı fabrikləri yaradılmalıdır. Biz ən yüksək keyfiyyətli məhsulları dünyanın aparıcı ölkələrinin bazarlarına çıxarmalıyıq.

Mən əvvəlki çıxışlarımda qeyd etmişdim ki, kənd təsərrüfatı məhsullarının arasında bizə ən çox gəlir gətirən sahə fındıqçılıqdır. Bizim hazırda fındıq bağlarımızın sahəsi təqribən 30 min hektardır, bəlkə də bir qədər çox. Qarşıya vəzifə qoyulub ki, əlavə 40 min hektarda fındıq bağları salınsın. Bu proses gedir və bu 40 minin 18 mini artıq əkilib. Əlbəttə ki, bu bağlar bir neçə ildən sonra məhsul verəcək. Ancaq bu bağlar məhsul verəndən sonra biz fındıq istehsalını iki dəfədən çox artıra bilərik. Əgər hazırda fermerlər 100 milyon dollar həcmində fındıq ixrac edirlərsə, bu, iki dəfədən çox artacaq, həm fermerlərə, həm də dövlətə xeyir gətirəcək.

Ən gəlirli sahələrdən biri də kartofçuluqdur. Bu sahəyə də maraq böyükdür. Əfsuslar olsun ki, biz hələ böyük ixrac potensialına malik deyilik, bu, mövsümdən-mövsümə dəyişir. Statistik göstəricilərə diqqət yetirəndə görürəm ki, biz bəzi illərdə öz tələbatımızı ödəyə bilmirik. Bəzi illərdə isə başabaş çıxırıq. Ona görə kartofçuluğun da inkişafı prioritet olmalıdır. Çünki kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən sahələrdən biri də kartofçuluqdur. Bu sahəyə də xüsusi diqqət göstərilməlidir.

Heyvandarlığın inkişafı bizə imkan verəcək ki, özümüzü süd məhsulları ilə, ətlə tam təmin edək. Biz o rəqəmlərə yaxınlaşırıq. Ancaq heyvandarlığın müasir texnologiyalar əsasında, iribuynuzlu mal-qaranın qapalı şəraitdə yetişdirilməsi həm torpaqlara qənaət edəcək, həm də ki, nəticələr daha yaxşı olacaq. Əlbəttə, cins mal-qaranın alınması və eyni zamanda, süni mayalanma mərkəzinin yaradılması burada dönüşə gətirib çıxaracaq. Heyvandarlıq iki faizdən çox artıb. Onu da deyim ki, yaradılan 38 aqroparkın içində, o cümlədən heyvandarlıq kompleksləri də var. Ümid edirəm ki, onların fəaliyyəti nəticəsində kəskin artım olacaq.

İyirmi yeddi rayonda 14 min hektarda şəkər çuğunduru əkilibdir. Bu, rekord göstəricidir. Azərbaycanda heç vaxt bu qədər şəkər çuğunduru əkilmirdi. Bunun da başlıca səbəbi İmişli şəkər zavodunun yerli xammal əsasında işləməsidir. Çünki daha çox xaricdən gətirilən şəkər qamışı emal olunurdu. İndi isə şəkər çuğunduru İmişlidəki zavoda veriləcək. Hər il ölkədən təqribən 200 milyon dollar valyuta gedir ki, xam şəkər gətirilsin. Biz ona qənaət edəcəyik. Beləliklə, bizim idxalımız daha da azalacaq, ixrac isə artacaq. Bu sahənin çox böyük perspektivləri var. Mən bunu da tapşırıq kimi verirəm.

Bir müddət əvvəl verdiyim tapşırıq isə soya ilə bağlıdır. Əvvəlki illərdə Azərbaycanda soya əkilmirdi. Biz soyanı idxal edirik. Hər il buna 10 milyonlarla dollar pul xərcləyirik. Ona görə, soya əkilməsi ilə bağlı göstəriş vermişdim və bu il biz artıq bunun nəticəsini görürük. On doqquz rayonda 9300 hektarda soya əkilib. Bu, hələ ki, tələbatımızı tam ödəməsə də, xarici valyutaya böyük dərəcədə qənaət edəcəyik. Çalışmalıyıq ki, soya üçün nəzərdə tutulmuş əkin sahələrini getdikcə genişləndirək.

Eyni zamanda, 500 hektar badam bağlarının salınması nəzərdə tutulur. Nəzərə alsaq ki, bizdə cəmi 1000 hektar badam bağları var, onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır, beş yüz hektar birinci mərhələdə yaxşı göstəricidir. Badam emalı zavodunun tikintisi də nəzərdə tutulmalıdır. Mən bu tapşırığı da verirəm.

Taxılçılıqla bağlı məsələlər daim gündəlikdədir. Mənim göstərişimlə Prezident Administrasiyasında xüsusi müşavirə keçirilmişdir, məsələlər təhlil edilmişdir. Biz gərək bu sahədə daha da yaxşı nəticələr əldə edək ki, idxaldan asılılığı azaldaq və məhsuldarlığı artıraq. Məhsuldarlıqla bağlı mən bəzi rəqəmləri səsləndirmək istəyirəm, həm bunlar təhlil edilsin, həm də ictimaiyyət də bilsin ki, vəziyyət necədir. Buğda ilə bağlı deməliyəm ki, hələ biçin aparılır. Amma bu günə orta məhsuldarlıq 28,8 sentnerdir. Prinsipcə bu rəqəm o qədər də aşağı rəqəm deyil, amma bundan da çox ola bilər. Çünki indi rayonlar üzrə səsləndirəcəyim rəqəmlər göstərir ki, daha da böyük məhsuldarlıq mümkündür. Ən böyük məhsuldarlıq aşağıdakı rayonlardadır: Saatlı rayonu 42 sentner, Ağcabədi 38 sentner, Sabirabad 40 sentner, Beyləqan 33 sentner, Bərdə 40 sentner, Ağdam 39 sentner, Hacıqabul 32 sentner, Qax 31 sentner, Xaçmaz 32 sentner, Yevlax 38 sentner, Tərtər 38 sentner, Şəmkir 33 sentner, İsmayıllı 40 sentner, Qəbələ 32 sentner, Cəbrayıl 32 sentner, Gəncə 32 sentner. Bunlar yaxşı rəqəmlərdir və bu, deməyə əsas verir ki, biz daha da böyük məhsuldarlıq əldə edə bilərik. Amma bəzi suallar da var.

İndi mən aşağı məhsuldarlığı olan rayonların adlarını çəkəcəyəm və bu məsələ sonra təhlil

edilməlidir. Bir-birinin yanında yerləşən rayonlarda məhsuldarlıq fərqi bizi düşünməyə vadar edir, o da araşdırılmalıdır. Məsələn, Kürdəmir rayonunda məhsuldarlıq 21 sentnerdir. Ancaq qonşu rayonlarda – Saatlıda 42 sentner, Sabirabadda isə 40 sentnerdir. Bəs nə üçün bu qədər fərq var?! Eyni zona, eyni iqlim, eyni şərait, suvarma işlərinə gəldikdə təxminən eyni layihələr icra edilir. Mən hələ ki, buna qiymət vermək istəmirəm. Ancaq tapşırıram ki, bu, araşdırılsın və mənə məlumat verilsin ki, bunun səbəbi nədir. Qax rayonunda məhsuldarlıq təqribən 32 sentnerdir, Şəkidə isə 22 sentner. Nə üçün? Özü də Şəki əkin sahələrinə görə Cəlilabaddan sonra ikinci yerdədir, 47 min hektar əkin sahəsi var, məhsuldarlıq isə 22 sentnerdir. Qonşu Qax rayonunda isə 32 sentnerdir. Səbəb nədir? Araşdırılmalıdır, məruzə edilməlidir və ölçü götürülməlidir.

Mən aşağı məhsuldarlığı olan rayonların da adlarını çəkmək istəyirəm. Ona görə ki, baxmaq lazımdır, orada gələcəkdə də bu səviyyədə əkin sahələri buğda üçün nəzərdə tutulsun, yoxsa, başqa sahəyə üstünlük verilsin. Dediyim kimi, Kürdəmir 21 sentner, Masallı 22 sentner, Ucar 23 sentner, Şamaxı 17 sentner. Özü də Şamaxıda 14 min hektar torpaq sahəsi var və əlbəttə, biz bu məhsuldarlığın nə qədər məqsədəmüvafiq olmasına baxmalıyıq. Qobustan 19 sentner, Şabran 21 sentner, Siyəzən 23 sentner, Xızı 19 sentner, Yardımlı 18 sentner və sairə. Ona görə buna çox ciddi baxmaq və ciddi təhlil aparmaq lazımdır.

Meliorativ tədbirlər haqqında məruzə edildi. İlin əvvəlində qarşıya vəzifə qoyulmuşdu ki, biz 100 min hektardan çox yeni torpaq sahələrinin suvarılmasını təşkil edək və bu istiqamətdə işlər gedir. Biz buna nail olacağıq. Biz yeni layihələr üzərində işləyirik. Elə etməliyik ki, suvarma işlərini maksimum dərəcədə yüksək səviyyədə aparaq. Çünki bu, məhsuldarlığa bilavasitə təsir göstərir. Subartezian quyularının qazılması davam etdirilir. 2013-2016-cı illərdə minə yaxın subartezian quyusu qazılmışdır. İyun ayında yeni Sərəncam imzalamışam. Bu Sərəncam əsasında 36 rayonun 136 yaşayış məntəqəsində 150 subartezian quyusu qazılacaq və deməli, 375 min insan bundan istifadə edəcək. Əvvəlki illərdə qazılmış quyular hesabına 1 milyon 300 min insan bu imkanlardan istifadə edib.

İnşaat sektorunun canlanması müşahidə olunur. İndi Bakıda 100-dən çox hündürmərtəbəli bina tikilir. Qəzalı binaların yerində yeni binalar tikilir. Onların sayı 80-ə yaxındır. Bu, şəhərimizi daha da gözəlləşdirir, abadlaşdırır. Yararsız, qəzalı binalardan vətəndaşlar köçürülür. Müvəqqəti olaraq onlara kirayə pulu verilir. Tikiləcək yeni binalarda onlara daha da böyük ölçüdə mənzillər veriləcək. Bu qəzalı binaların hər birinin yerində tikilən binanın birinci mərtəbəsində uşaq bağçası da nəzərdə tutulur. Bu, mənim xüsusi göstərişim idi. Beləliklə, ancaq bu yolla Bakı şəhərində bir-iki ilə 80-dən çox uşaq bağçası istifadəyə veriləcək.

Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə 29 bina tikilir. “Ağ şəhər”də onlarla bina inşa olunub. Yəni, bax, bu üç istiqamətdə artıq 100-dən çox binanın inşaat işləri aparılır. Əlbəttə ki, Bakının digər yerlərində, digər şəhərlərimizdə mənzil tikintisi geniş vüsət alıb, inşaat sektoru artıq bərpa edilir, canlanma var. Əlbəttə ki, bunun tikinti materialları sektoruna da müsbət təsiri var və olacaq. Mən iş adamlarına məsləhət görərdim ki, bu sahəyə daha da böyük diqqət yetirsinlər, sərmayə qoysunlar. Çünki bundan sonra inşaat işləri Azərbaycanda daha sürətlə aparılacaq, tikinti materiallarına böyük ehtiyac olacaq.

Mən sərmayə qoyuluşu ilə bağlı rəqəmləri səsləndirdim, 5 milyard dollar sərmayə qoyulub. Ancaq bunun böyük hissəsi xarici sərmayədir. Biz çalışmalıyıq ki, daxili sərmayəni də cəlb edək. Daxili sərmayə deyəndə mən dövlət investisiyalarını nəzərdə tutmuram. Onsuz da biz bunu edirik və Dövlət İnvestisiya Proqramı uğurla icra olunur və tam icra edilməlidir. Buraya məktəb, xəstəxana, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, infrastruktur layihələri, yol salınması və sair daxildir. Mən özəl sərmayəni nəzərdə tuturam. Özəl sərmayənin cəlb edilməsi üçün təkcə mərkəzi icra orqanları məsuliyyət daşımırlar, yerli icra orqanları da, mən bunu demişəm, bir daha demək istəyirəm ki, daha fəal olmalıdırlar. Xüsusilə bölgələrdə investisiyaları cəlb etmək üçün icra başçıları gərək fəal olsunlar. Bəzi yerlərdə bu fəallıq, nəticələr var, amma bəzi yerlərdə bu fəallıq yoxdur, biganəlik var. Bəzi hallarda investorlara kömək etmək əvəzinə problemlər yaradılır. Bunlara son qoyulmalıdır. İlin sonunda – dekabr ayında Prezident Administrasiyası və İqtisadiyyat Nazirliyi mənə məlumat, siyahı verməlidir ki, hansı rayonda nə qədər özəl sərmayə cəlb olunub. Hər bir icra başçısının işinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcək. Mən müşavirələrin birində də demişəm ki, icra başçılarının fəaliyyətinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcəkdir. Bir daha deyirəm ki, dekabrın 15-də mənə geniş arayış təqdim edilsin və ondan sonra həm yüksək qiymət veriləcək, həm də cəza tədbirləri görülə-

çəkdir. Mən dövlət məmurlarının davranış normaları ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm. Hər bir dövlət məmurunu işə təyin edəndə verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar və həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm ki, o dövlət məmuru öz ailə üzvlərini idarə edə bilmirsə vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın.

Bu il infrastruktur layihələrinin icrası davam etdirilmişdir. Qazlaşdırma səviyyəsi artıq 93 faizə çatmışdır. Biz qarşıya 95 faiz hədəfi qoymuşduq. Ölkəmizin relyefini nəzərə alsaq hesab edirəm ki, bu, yaxşı rəqəmdir. Artıq biz bu hədəfə çatırıq. Digər infrastruktur layihələri də icra edilir, elektrik təsərrüfatı yenilənir. Kənd yolları layihələri icra edilir. Şərti olaraq biz bu layihəni “40 kənd yolu” layihəsi adlandırdıq, ancaq hər bir layihənin əhatə dairəsi daha genişdir. Yəni, 40 deyəndə, əslində, bu, 200, bəlkə də daha çox kəndi əhatə edir. Çünki hər bir layihə 4-5 kəndi əhatə edir və bu, çox gözəl nəticə verir, bölgələrdə də vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İçməli su layihələri icra edilir. Kifayət qədər vəsait var və gələn il də bu proses davam etdiriləcək. Artıq bir çox şəhərlərimizdə içməli su məsələsi həll olunub.

Bakı şəhərində böyük yol infrastrukturu layihələri icra edilir, yeni yollar açılır. Bu yaxınlarda da yeni yol açılmışdır. “Sovetski” adlanan ərazidə müasir yol infrastrukturu artıq istismara verilmişdir. Eyni zamanda, o ərazidə böyük abadlıq işləri aparılır. İndi Təzəpir məscidinin önü açılıbdır, orada park olacaq. Digər tərəflərdə də ictimai yerlər yaradılacaq ki, Təzəpir məscidinin hər tərəfdən görünməsi mümkün olsun. Azərbaycan Dövlət Dram Teatrının arxasında – yol infrastrukturu yaradılan ərazidə də ictimai yerlər, parklar, bağlar, salınacaq, ağaclar əkiləcək ki, bunlar Bakı şəhəri üçün, necə deyərlər, yeni bir “ağ ciyər” olacaq. Bu ərazi yaşıllıq zonası olacaq və bu, bizə çox lazımdır. Son illər ərzində bir çox ictimai yerlər açılıbdır, parklar, bağlar yaradılıbdır. Elə bulvarın özü böyük ictimai istirahət zonasıdır və bu proses davam etdirilməlidir. Hacı Cavad məscidinin yeni binasının tikintisi gedir, daha da sürətlə getməlidir ki, yaxın aylarda bu məscid istifadəyə verilsin.

Qeyd etdiyim kimi, qeyri-neft sektorunun ixracının artırılması istiqamətində işlər gedir, artım yaxşıdır, 27 faiz təşkil edib. Biz ixracın coğrafiyasını da genişləndirməliyik. Ənənəvi bazarlar var. Biz o bazarlarda varıq, mövqelərimizi daha da gücləndirməliyik, yeni bazarlara da çıxmalıyıq. Bu istiqamətdə də görülən işlər artıq nəticə verir. Biz indi bir neçə Körfəz ölkəsinə öz kənd təsərrüfatı və emal məhsullarımızı ixrac etməyə başlamışıq. Bunu genişləndirmək lazımdır. Körfəz ölkələrinin bazarı kifayət qədər böyükdür və məsafə baxımından yaxındır. Ona görə, ilkin layihələr başlayıb. Biz artıq məhsul ixracına başlamışıq. Bunu daha da genişləndirməliyik. Dövlət qurumları, İqtisadiyyat Nazirliyi sahibkarlara öz köməyini göstərir. Biz artıq Asiya ölkələrinin bazarlarına çıxırıq və çalışmalıyıq ki, Avropa İttifaqı ölkələrinin bazarlarına da çıxaq. Mənim demək olar ki, bütün xarici səfərlərim çərçivəsində və xarici həmkarlarım Bakıda olanda bu məsələni qaldırıram, siyahını onların qarşısına qoyub deyirəm ki, biz bu məhsulları ixrac edə bilərik, siz də bunları alırsınız, gəlin bizdən alın. Biz də sizin ixrac etdiyiniz məhsulları alaq. Ona görə, indi biz bütün görüşlərə bu siyahı ilə gedirik və bunun gözəl nəticələri var. Avropa ölkələrində, Körfəz ölkələrində, Asiya ölkələrində bizim məhsullara maraq var, sadəcə olaraq, bu günə qədər onlarda məlumat yox idi. “Azexport” portalının yaradılması da bu istiqamətdə atılan çox ciddi bir addımdır. İndi portala bütün dünyadan sifarişlər gəlir. Amma əvvəllər heç kim bilmirdi ki, biz nə istehsal edirik. İndi bilirlər, müraciət edirlər, elektron qaydada müqavilələr bağlanır. Yəni, bu, böyük bir hadisədir və belə addımların atılması görün sahibkarların işini nə qədər yüngülləşdirir. Bütün əsas bazarlar olan ölkələrə indi dövlət və özəl sektorun nümayəndələrindən ibarət ticarət missiyaları göndərilir. Biz öz məhsullarımızı xaricə ixrac etməliyik.

Mən burada da bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bu, həm ictimaiyyət üçün maraqlı olar, həm də bizim sahibkarlar və dövlət qurumları bilsinlər ki, bu, yaxşı nəticələrdir. Amma biz bu istiqamətdə işləri davam etdirməliyik. Kənd təsərrüfatı və emal məhsullarının ixracı ilə bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm: bu il pomidor ixracı 55 faiz, kartof 63 faiz, soğan 1100 faiz, pambıq 154 faiz, pambıq lifi 650 faiz, süd

məhsulları təqribən 400 faiz, meyvə və tərəvəz emalı məhsulları 54 faiz, emal olunmamış dəri 38 faiz, spirtli və spirtsiz içkilər 16 faiz, o cümlədən şərab 13 faiz, alma təxminən 200 faiz, xurma 14 faiz, nar 106 faiz, çay 50 faiz, şokolad 50 faiz, tütün məmulatları 5 faiz, bitki-heyvan mənşəli yağlar 7 faiz artıb. Bax, bunlar görülən işlərin nəticəsidir. Sənaye məhsullarının ixracı: qızıl 64 faiz, elektrik enerjisi 300 faiz, – biz indi elektrik enerjisini satırıq və birinci altı ayda 25 milyon dollar dəyərində satmışıq. Nəyə görə? Çünki biz xətləri tikdik, birləşdirdik, bütün qonşu ölkələrlə bizim yüksəkgərginlikli xətlərimiz var və ixrac edirik, – alüminium 30 faiz, plastik məmulatlar 22 faiz, avadanlıqlar, mexaniki qurğular 50 faiz, mis 67 faiz, mis-filiz konsentratlar 100 faiz, qatran yağları 56 faiz, bentonit gili 255 faiz, toxuculuq məmulatları 73 faiz, daş, gips, sement 3000 faiz, kimya sənayesi məhsulları 8 faiz, qurğuşun 123 faiz artıb.

Bunlar görülən işlərin ən gözəl göstəriciləridir. Bununla bərabər, bəzi məhsullar var ki, ixracı azalıb. Onu da hamı bilməlidir ki, həm araşdırılsın nə üçün azalıb, həm də ölçü götürülsün. Misal üçün, albalı və gilas, ixrac 22 faiz azalıb. Şəkər 11 faiz, fındıq 9 faiz azalıb. Sənaye məhsulları arasında isə azalan yeganə pozisiya qara metal və ondan məmulatlardır. Bu məhsulun ixracı 11 faiz azalıb. Yəni, azalan siyahı üç pozisiyadan ibarətdir, artan isə baxın nə qədərdir və bizim imkanlarımız nə qədər genişlənib. Mən bu rəqəmləri ona görə səsləndirdim ki, bu, çox gözəl nəticələrdir, bizim işimizin təzahürüdür. Eyni zamanda, bu, gələcək üçün də bir nümunədir. Bu pozisiyalar üzrə istehsalımızı artırmalıyıq və ixracın coğrafiyasını da genişləndirməliyik.

Sahibkarlara 6 ayda güzəştli şərtlərlə 63 milyon manat kredit verilibdir. Ümumiyyətlə, bütövlükdə güzəştli şərtlərlə iki milyard manat kredit verilib. İnvestisiya təşviqi mexanizmi özünü tam doğruldub. Bu, çox düzgün addım idi. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra məhz bu təşəbbüsə görə Azərbaycana 1,6 milyard manat dəyərində investisiya qoyulub. Əgər bu mexanizm olmasaydı, bu 1,6 milyard manat investisiya da olmayacaqdı. Biz bunu etdik. Baxmayaraq ki, bu məsələ ilə bağlı müxtəlif fikirlər var idi. Amma mən dedim ki, biz buna getməliyik və nəticə də göz qabağındadır. İnvestisiya təşviqi mexanizmi qədər bizə investisiya gətirən ikinci amil yoxdur. Ona görə, sahibkarlar da bunu yüksək qiymətləndirirlər. İş yerləri də açılır və gözəl iqtisadi sənaye potensialı yaranır. İxracın təşviqi mexanizmi də fəaliyyət göstərir. Bunun da yaxşı təsiri var.

Bu il turizmin inkişafı da bizi sevindirir. Turistlərin sayı 25 faiz artıbdır. Əlbəttə ki, bunun səbəbləri bəllidir. Azərbaycanı daha çox tanıyırlar. Azərbaycan dünyada təhlükəsiz, sabit ölkə kimi tanınır. Ölkəmizdə keçirilən beynəlxalq yarışlar, tədbirlər əlbəttə ki, marağı artırır. Xüsusilə o yarışlar arasında mən Formula-1 yarışını qeyd etməliyəm. Bu yarışın auditoriyası dünya miqyasında 500 milyon insandır. Beş yüz milyon insan Bakını, şəhərimizin gözəlliyini görür. Bakıda o yarışlarda iştirak edən idmançılar, nümayəndə heyətinin üzvləri, qonaqlar əlbəttə ki, qayıdandan sonra xoş təəssüratlarını öz dostları ilə bölüşürlər. Ona görə, turist axını daha da böyük olacaq. Biz buna hazır olmalıyıq. Xüsusilə Bakıda və bölgələrdə yeni otellərin tikilməsinə böyük ehtiyac var. Mən sahibkarlara məsləhət görərdim ki, bu sahəyə investisiya qoysunlar. Çünki bu, gəlirli sahədir və yaxşı nəticə verəcək.

Qeyd etmək istədiyim sonuncu məsələ də yenilikdir, yeni təşəbbüsdür. Bunun da çox böyük perspektivi və artıq yaxşı nəticələri var. Bu, özünüməşğulluq proqramıdır. Biz bu yaxınlarda bu proqrama start verdik. İlkin vəsaiti mən Prezidentin ehtiyat fonundan ayırdım. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi treninqlər keçiribdir, ailələr müəyyən edilibdir. Artıq bir çox ailələrə dövlət tərəfindən maliyyə dəstəyi göstərilir və tövsiyələr verilir ki, onlar öz ailə biznesini necə qursunlar və onların ünvanlı dövlət sosial yardımına ehtiyacı qalmasın, özləri üçün yaxşı şərait yaratsınlar. Bu istiqamətdə qanunvericilikdə də müvafiq dəyişikliklər edildi. Bu dəyişikliklər nəticəsində gələn ildən başlayaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öz vəsaiti yaradılacaq və biz o vəsaitlə minlərlə ailəni özünüməşğulluq proqramı ilə əhatə edə bilərik. Mən hesab edirəm ki, birinci mərhələdə hər il 5-10 min ailə dövlətdən bu dəstəyi almalıdır. Əgər nazirliyin buna vəsaiti çatmasa müraciət etsinlər, mən əlavə vəsait ayıraram. Beləliklə, əgər biz hər il 5-10 min ailəni əhatə etsək, 5-6 faiz səviyyəsində olan işsizlik də aradan götürüləcək və ünvanlı yardıma da ehtiyac qalmayacaq.

Beləliklə, bir daha qeyd etmək istəyirəm ki, bu ilin 6 ayının yekunları məni sevindirir. Nazirlər Kabinetinin iclası, o cümlədən xalqa verilən hesabatdır. Biz bunu müntəzəm olaraq edirik. Eyni zamanda, verdiyim tapşırıqlar yerinə yetirilməlidir ki, biz müsbət dinamikanı daha da artıraq. Sağ olun.

# Prezident İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 avqust 2017-ci il.

# Baş Prokurorluqda geniş əməliyyat müşavirəsi keçirilib

**2017-ci ilin birinci yarımilində görülmüş işlərin vəziyyətinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib**



İyulun 31-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanları tərəfindən 2017-ci ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov bildirmişdir ki, 2017-ci ilin birinci yarısında ölkə həyatının bütün sahələrində dinamik inkişaf yüksək templərlə davam etmiş, hüquqi-demokratik islahatlar, böyük infrastruktur layihələri və sosial yönümlü proqramlar uğurla həyata keçirilmiş, vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli inkişafına, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirilmiş dövlətçilik siyasəti öz müsbət nəticələrini vermişdir. Əldə edilən nailiyyətlərin

əsasını xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu daxili və xarici siyasət tədbirləri təşkil etmişdir.

2017-ci ilin birinci yarısında ölkə iqtisadiyyatına 5 milyard ABŞ dolları həcmində investisiya yatırılması, qeyri-neft sənayesində məhsul istehsalının 4,4 faiz, kənd təsərrüfatının 2,2 faiz, ümumilikdə ixracın 36 faiz artması, valyuta ehtiyatlarının artaraq 40,6 milyard ABŞ dollarına çatması xüsusi vurğulanmışdır.

Son illər ölkəmizin, eyni zamanda paytaxt Bakının mötəbər beynəlxalq iqtisadi və humanitar forumlara, mahnı müsabiqəsi və dünya miqyaslı idman yarışlarına – ilk Avropa Oyunlarına, eləcə də cari ildə möhtəşəm tədbirlərə – IV İslam Həmrəyliyi Oyunlarına və "Formula – 1 Avropa Qran-Pri" idman yarışlarına ev sahibliyi etməsi respublikamızın beynəlxalq aləmdə yüksək imicə, tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olduğunu, eyni zamanda ictimai asayişin mühafizəsi və təhlükəsizlik tədbirlərinin ən yüksək səviyyədə yerinə yetirildiyini bir daha sübut etdi.

Xüsusi vurğulanmışdır ki, ölkəmizin ictimai-siyasi həyatında müstəsna rol oynayan şəxsiyyət kimi Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək etimada – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması xalqımızın hədsiz sevincinə səbəb olmaqla, vətənimizin beynəlxalq miqyasda rolunun daha da artmasına stimul verəcəkdir.

Hesabat dövründə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları, ilk növbədə Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuş, prokurorluq orqanlarında hərtərəfli islahatlar prosesi yeni müstəvidə davam etdirilmiş, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

2017-ci ilin birinci yarımilində istintaq və əməliyyat-axtarış fəaliyyəti sahəsində görülmüş birgə tədbirlər nəticəsində hesabat dövründə cinayətlərin açılması 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,3% yaxşılaşaraq 85,4% təşkil etmiş, həmçinin daxili işlər orqanları ilə birgə həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində əvvəlki illərdən bağlı qalmış 288 cinayətin açılması təmin edilmişdir.

Hesabat dövründə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılmasına və onları törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələrinə xüsusi önəm verilməklə, daim diqqət mərkəzində saxlanılmışdır. Görülmüş tədbirlərin, habelə prokurorluğun Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməliyyat qurumları ilə həyata keçirilən əlaqəli işin nəticəsində hesabat dövründə qeydə alınmış 78 qəsdən adam öldürmə cinayətindən 76 hadisənin açılması təmin olunmuşdur. Qəsdən adam öldürmə cinayətlərinin sayı 2016-cı ilin birinci yarımili ilə müqayisədə 9 hadisə azalmaqla, onların açılması əsasən sabit qalmış, qəsdən adam öldürməyə cəhd cinayətlərinin isə 100% açılması təmin edilmişdir.

2017-ci ilin birinci yarımilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətləri ilə yanaşı, mülkiyyət əleyhinə olan cinayətlər, eləcə də yol-nəqliyyat hadisələri və qəzalarda xəsarət alanların sayı azalmışdır. Həyata keçirilmiş əməli tədbirlər nəticəsində 2016-cı ilin birinci yarımilinə nisbətən hesabat dövründə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 57 fakt azalaraq 848 fakt, xəsarət alanların sayı 138 fakt, yəni 832 nəfər azalsa da təəssüf hissi ilə qeyd edilməlidir ki, həmin hadisələr zamanı ölənlərin sayı 11 fakt artaraq 315 nəfər təşkil etmişdir.

Digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqəli şəkildə qeydə alınmış cinayətlərin artım tendensiyasının qarşısının alınması və törədilmə müddətindən asılı olmayaraq bağlı qalan cinayətlərin açılması, təqsirli şəxslərin müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri istintaq və əməliyyat-axtarış

tədbirlərinin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Ermənistan Silahlı Qüvvələrinin atəşkəs rejimini və beynəlxalq humanitar hüququn normalarını kobud şəkildə pozaraq cari il iyulun 4-də Azərbaycanın işğal olunmuş ərazilərindən Füzuli rayonunun Alxanlı kəndini ağır artilleriya qurğularından atəşə tutması nəticəsində kənd sakinləri – 51 yaşlı Sahibə Allahverdiyeva və onun 1 yaşlı nəvəsinin həlak olması, digər mülki şəxs 52 yaşlı Səlminaz Quliyevanın ağır bədən xəsarətlər alması, eləcə də vətəndaşların şəxsi mülkiyyətində olan əmlaklarının qəsdən məhv edilməsi faktlarına görə Füzuli rayon prokurorluqlarında dərhal Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq təxirəsalınmaz istintaq hərəkətlərinin yerinə yetirilməsi üçün istintaq-əməliyyat qrupu yaradılmışdır.

Bildirilmişdir ki, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya cinayətlərinə qarşı mübarizənin tam yeni müstəviyə qaldırılması prokurorluq orqanlarının qarşısında duran ən əsas vəzifələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq ötən dövrlərdə olduğu kimi 2017-ci ilin birinci yarısında da Azərbaycan Respublikasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri uğurla davam etdirilmişdir.

“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı” korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradənin göstəricisi olaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi, əlaqəli dövlər orqanları ilə birlikdə korrupsiya şəbəkələrinin aşkar edilməsi istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur. Həmin vəzifələrin icrası ilə əlaqədar Baş prokuror tərəfindən 19 may 2016-cı il tarixdə Tədbirlər Planı təsdiq edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində “ASAN” xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Korrupsiya hallarına qarşı mübarizə işinin düzgün təşkilində 161 saylı „Qaynar xətt“ əlaqə mərkəzinin yaradılmasının əhəmiyyəti xüsusi qeyd olunmuşdur. Baş idarə tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının yayıldığı idarəçilik və xidmət sahələrinin aşkar edilməsi, təqsirli şəxslərin ifşa edilməsi, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan “Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir. Bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyi nəzərə alınaraq hesabat dövründə bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə önəm verilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə diqqət artırılmışdır.

Cari ilin 6-7 iyun tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin və ombudsmanlarının Bakıda keçirilmiş üçüncü iclasının əhəmiyyəti xüsusi vurğulanmışdır.

Bildirilmişdir ki, Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA), habelə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilir.

Xüsusi vurğulanmışdır ki, hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində qeyri-aşkar şəraitdə törədilmiş bir sıra xüsusilə ağır cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq keyfiyyətli istintaq edilməsi, cinayət

törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri, eyni zamanda böyük ictimai rezonansa səbəb olmuş bəzi cinayət hadisələri üzrə başlanmış cinayət işlərindən 26 şəxs barəsində 18 iş üzrə yüksək peşəkarlıqla istintaqının yekunlaşdırılaraq məhkəmələrə göndərilmişdir.

Belə ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin yüksək rütbəli vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı 250 epizod üzrə aparılmış kompleks istintaq-əməliyyat tədbirləri nəticəsində 2005-2015-ci illər ərzində nazirliyin əməkdaşlarından ibarət yaradılmış mütəşəkkil dəstənin üzvlərindən Akif Çovdarov, Sübahir Qurbanov və qeyrilərinin, cəmi 19 şəxs barəsində 7 cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmişdir.

Vurulmuş 41 milyon 512 min manat məbləğində ziyanın ödətdirilməsinin təmin olunması məqsədi ilə təqsirləndirilən şəxslərə məxsus ümumilikdə 56 milyon manat dəyərində əmlak üzərinə məhkəmənin qərarı ilə həbs qoyulmuşdur.

Hazırda cinayət işinin digər epizodları, o cümlədən barələrində axtarış elan olunmuş şəxslərin cinayət əməlləri barədə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, mütəşəkkil dəstə tərkibində Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə və ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etməsində təqsirləndirilən bir neçə dövlətin vətəndaşlığını daşıyan Aleksandr Lapşinin barəsində olan cinayət işi üzrə istintaq yekunlaşaraq aidiyyəti üzrə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmiş və məhkəmə tərəfindən müvafiq ittiham hökmü çıxarılmışdır.

Müşavirədə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin müsbət iş təcrübəsi, eləcə də mərkəzin səmərəli fəaliyyəti nəticəsində "İmtahan" informasiya sistemi vasitəsilə prokurorluq əməkdaşlarının nəzəri bilik və peşə hazırlığı səviyyəsinin test üsulu ilə obyektiv meyarlar əsasında yoxlanılmasının əhəmiyyəti xüsusi vurğulanmışdır.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin görülməsinin intensivləşdirilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının funksional imkanlarının və tətbiqi dairəsinin genişləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla bu proqramların tam tətbiq olunmasının təmin edilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Xüsusi qeyd edilmişdir ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır.

Çox ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılmasına baxmayaraq, 2017-ci ilin birinci yarımilində müxtəlif xətalar törətdiklərinə görə 13 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 5 nəfər tutduğu vəzifədən azad olunmuş, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilmişdir.

Tələb edilmişdir ki, bütün struktur qurumlarda, tabe rayon və şəhər prokurorluqlarında Azərbaycan Prezidenti cənab İlham Əliyevin dövlət qulluqçularının xidməti və xidmətdən kənar məmur-vətəndaş münasibətlərini müəyyən edən proqram xarakterli çıxışlarından ciddi nəticə çıxarılması, eləcə də xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və neqativ təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Qeyd olunmuşdur ki, vətəndaşları narahat edən məsələlərin həllinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə dövlət başçısının tələbləri rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılmış, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal

və səthi cavabların verilməsi kimi çatışmazlıqların hələ də mövcud olduğu nəzərə alınmaqla, bütün struktur qurumların rəhbərlərindən müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün neqativ halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi tələb olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, prokurorluq orqanları tərəfindən 2017-ci ilin birinci yarısında görülmüş işlərin vəziyyəti təsdiq edilmiş cədvələ uyğun olaraq bölgələr üzrə keçirilən əməliyyat müşavirələrində müzakirə edilmiş, Baş prokurorun müavinləri, Baş Prokurorluğun Kollegiya üzvlərinin sədrliyi və tabe şəhər və rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə Sabirabad, Ucar, Biləsuvar, Ağcabədi, Xaçmaz, İsmayıllı və Şəmkir rayonlarında keçirilmiş əməliyyat müşavirələrində hesabat dövründə görülmüş işlərin real vəziyyəti, mövcud nöqsanlar və çatışmazlıqların yaranma səbəbləri hərtərəfli və prinsipial təhlil edilmiş, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, tabe struktur qurumların fəaliyyəti üzərində Baş Prokurorluğun nəzarətinin daha da təkmilləşdirilməsi, tabe prokurorluqlarda xidməti, icra və əmək intizamının daha da yüksəldilməsi üçün konkret tədbirlər müəyyənləşdirilmişdir. Əməliyyat müşavirələrində qaldırılan və işin səmərəliliyinə mənfi təsir göstərən problemlərin aradan qaldırılması və həlli vacib məsələlərin tənzimlənməsi istiqamətində qarşıda duran konkret vəzifələr müəyyənləşdirilmiş və Baş Prokurorluğun əlaqədar struktur qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

Müşavirədə 2017-ci ilin birinci yarısında prokurorluq orqanları tərəfindən görülmüş işlər və bu məsələnin bölgə müşavirələrində müzakirəsinin nəticələri barədə Baş prokurorun birinci müavini Rüstəm Usubov məruzə etmişdir. Müzakirələrdə çıxış edən Baş prokurorun müavini Namiq Əsgərov Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamından irəli gələn vəzifələr və görülmüş işlər, Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov hesabat dövründə iş planının icra vəziyyəti, cari ilin ikinci yarımilinə dair iş planında nəzərdə tutulmuş tədbirlər, Hüquqi təminat idarəsinin rəisi Natiq Hüseynov 2016-cı il martın 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsinin tətbiqi zamanı prokurorluq orqanları qarşısında duran vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat vermişlər.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Prezident cənab İlham Əliyevin ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə tapşırıqlarını bir daha xatırladaraq, dövlət başçısının bu tələblərinin yüksək səviyyədə icrasına nail olmaq üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarına və bütün tabe prokurorluqlara, ilk növbədə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi, bu neqativ təzahürlərin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində bundan sonra da sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin görülməsi barədə göstərişlər vermişdir. Eyni zamanda xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsi prinsipi üzərində qurulmasının, müasir texnologiyaların tətbiqinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinin başlıca vəzifələr olaraq ardıcıllıqla həyata keçirilməsinin zəruriliyi vurğulanmışdır.

Əməliyyat müşavirəsində inam ifadə olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən yeni məzmunlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanları bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**2017-cı ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib**



İyulun 21-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2017-ci ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Muxtar Respublika Prokurorluğu 2017-ci ilin birinci yarımilində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərmişdir.

Muxtar Respublika ərazisində 3 böyük ictimai təhlükə törətməyən, 1 az ağır və 2 xüsusilə ağır olmaqla 6 cinayət hadisəsinin qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməden qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı-profilaktiki tədbirləri daha da gücləndirməli, digər rayonların ərazilərində isə bundan sonra da cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı

cinayət hadisəsi qeydə alınmamış, həyata keçirilmiş zəruri profilaktiki tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar, əvvəllər məhkum olunmuşlar, narkomanlar və sərxoşlar tərəfindən cinayət hadisəsi törədilməmişdir.

Şərur rayon prokurorluğu tərəfindən həyata keçirilmiş zəruri istintaq tədbirləri nəticəsində keçmiş illərdə baş verib qapalı qalmış 1 cinayət işinin açılması təmin edilmişdir. Prokurorluğun müvafiq şöbələri və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə bu xarakterli hər bir cinayət işi üzrə müzakirələr keçirməli, həmin cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirməlidirlər.

Qeyd olunmuşdur ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 3 fakt qeydə alınmış, Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, aşkar oluna biləcək hər bir fakt üzrə narkotik vasitənin əldə edilmə mənbəyi müəyyənləşdirilərək təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələrini təmin etməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 4 cinayət işi istintaq olunmuşdur ki, onlardan 1-i ittiham aktı ilə baxılması üçün məhkəmyə göndərilmiş, keçmiş illərdən qapalı qalmış 1 işin icraatı təzələnərək xitam olunmuş, 2 işin isə icraatı davam etdirilir. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında 22 məlumat daxil olmuşdur ki, onlardan 1 iş üzrə cinayət işi başlanmış, 17 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 4 məlumat isə istintaq aidiyyatına göndərilmişdir. Cinayət barədə ərizə və məlumatların baxılmasında müddət və qanun pozuntularına yol verilməmiş, qəbul edilmiş qərarlardan ləğv ediləni olmamışdır.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 13 şəxs barəsində 13 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmiş, birinci instansiya məhkəmələrində baxılıb nəticə verilmiş 17 şəxs barəsində 16 iş üzrə ittiham hökmləri çıxarılmış, hazırlıq iclası keçirilmiş 1 şəxs barəsində 1 iş qalıq qalmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 17 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilmişdir ki, onların barəsində müvafiq qərarlar qəbul olunmuşdur. Məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 7 şəxs barəsində 7 işə baxılaraq nəticə verilmişdir.

Qeyd olunmuşdur ki, daxili işlər orqanlarında 6 cinayət işi istintaq olunmuşdur ki, onlardan 5 iş ittiham aktı ilə məhkəməyə göndərilmiş, 1 işin icraatına isə xitam verilmiş, istintaq olunmuş cinayət işlərindən 2 iş üzrə 11619 manat maddi ziyan istintaq dövrü tam ödənilmişdir. Müddət pozuntusu ilə cinayət işi istintaq olunmamış, istintaqı tamamlanmış işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmamış, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər barədə 11 məlumat qeydə alınmışdır ki, 1 məlimat üzrə cinayət işi başlanmış, 5-i üzrə cinayət işi başlanması rədd edilmiş, 3 məlumat istintaq aidiyyəti üzrə göndərilmiş, 2-i isə hesabat dövrünün sonuna qalıq qalmışdır. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 3 şəxs barəsində 3 axtarış işi olmuşdur ki, onlardan 2-i tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 1 şəxsin tutulması isə təmin olunmadığından növbəti yarımilə qalıq qalmışdır. Axtarışda olan şəxs Naxçıvan şəhəri ərazisində olduğundan həmin şəxsin tutulması üçün Naxçıvan şəhər prokurorluğu və digər səlahiyyətli orqanlar ciddi və təxirəsalınmaz tədbirlər görməlidirlər. Xəbərsiz itkin düşmə kimi 1 nəfər axtarışda olmuş və həmin şəxsin tapılması təmin edilmədiyindən axtarış işi qalıq qalmış, 5 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, nəticədə 7 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi Muxtar Respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yolnəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Dövlət Gömrük Komitəsində 4 cinayət işi istintaq olunmuşdur ki, onlardan 2 iş ittiham aktı ilə

məhkəməyə göndərilmiş, 2-i isə hesabat dövrünün sonuna qalıq qalmışdır. Ədliyyə Nazirliyində 4 cinayət işi istintaq olunmuşdur ki, onlardan 2-i ittiham aktı ilə aidiyyəti üzrə məhkəməyə göndərilmiş, 2 işin isə icraatı dayandırılmış, müəyyən olunmuş 40361 manat maddi ziyandan 4860 manatı ödənilmişdir. Vergilər Nazirliyndə 1 cinayət işi istintaq olunmuşdur ki, həmin iş üzrə cinayət təqibinə xitam verilmiş və istintaq zamanı müəyyən olunmuş 1925 manat maddi ziyan tam şəkildə ödənilmişdir. Dövlət Təhlükəsizlik Xidmətində 4 cinayət işi istintaq olunmuşdur ki, onlardan 1 iş ittiham aktı ilə məhkəməyə göndərilmiş 2 işin icraatına xitam verilmiş, 1 işin isə icraatı dayandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və tabe rayon (şəhər) prokurorluqlarının iş planlarına “Prokurorluq haqqında” Qanunda və digər qanunvericilik aktları ilə müəyyən edilmiş vəzifə və səlahiyyət hüdudlarından kənara çıxan, özündə keçmiş prokurorluğun funksiyalarına aid elementləri daşıyan tədbirlər və eləcə də prokurorluğun səlahiyyətlərinə aid olmayan məsələlər daxil edilməmiş, iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuş, inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən müvafiq orqanlara 4 təqdimat verilmişdir.

Qeyd olunmuşdur ki, vətəndaşlardan 21 müraciət daxil olmuşdur ki, onlardan 8 müraciət prokurorluqda həll edilmiş, 8 müraciət baxılması üçün aidiyyəti üzrə göndərilmiş, 5 müraciət isə istintaq olunan cinayət işinə və araşdırılan materiallara əlavə edilmişdir. Muxtar Respublika Prokurorluğunun elektron poçt ünvanına 4 müraciət daxil olmuşdur ki, onlardan 2 müraciətə prokurorluqda baxılaraq müvafiq izahlar verilmiş, 2 müraciət isə baxılması üçün aidiyyəti üzrə göndərilmiş, 168 nəfər prokurorlar tərəfindən qəbul edilib dinlənilmiş, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür.

Prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 421 halda təbliğat aparılmış, kütləvi informasiya vasitələrində 181 dəfə, o cümlədən televiziyada 33, radioda 31, mətbuatda isə 112 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, Naxçıvan şəhər və Babək rayon prokurorluqları tərəfindən kütləvi informasiya vasitələri ilə əlaqələr daha səmərəli təşkil olunmuş, Naxçıvan Dövlət televiziyasında “Qanunçuluq” televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda 12 dəfə müxtəlif hüquqi mövzularda verilişlər efirə getmiş, Azərbaycan Respublikası Baş Prokurorluğunun 31 may 2017-ci il tarixli 16/34 saylı icmal məktubunda “Azərbaycan Respublikası Baş Prokurorunun “Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında” 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2016-cı ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub”da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi hesabat dövründə təmin olunmuşdur. Belə ki, müvafiq əmrlərə əsasən 3 nəfər yuxarı, 1 nəfər aşağı təsnifat vəzifəyə təyin olunmuş, 1 nəfər vəfat etdiyindən onun adı prokurorluq işçilərinin siyahısından çıxarılmışdır. “Prokurorluq işçilərinin ixtisaslarının artırılması, attestasiya olunması işinin təkmilləşdirilməsi haqqında” və Naxçıvan Muxtar Respublikası prokurorunun əmrləri əsasında Muxtar Respublika Prokurorluğunun mərkəzi aparatında və tabe rayon (şəhər) prokurorluqlarında 225 tədris məşğələsi keçirilmişdir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Rusiya Federasiyası İstintaq Komitəsinin yaranmasının 10 illiyinə və Rusiya istintaq orqanlarının 300 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edib

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin dəvəti ilə sentyabrın 21-22-si Rusiya Federasiyası İstintaq Komitəsinin yaranmasının 10 illiyinə və Rusiya istintaq orqanlarının 300 illiyinə həsr olunan tədbirlərdə iştirak edib.

Rusiya Ordusunun Akademik teatrında keçirilən təntənəli mərasimdə Rusiya Federasiyasının Prezidenti cənab Vladimir Putinin tədbir iştirakçılarına ünvanlanan video müraciəti nümayiş etdirilib.

Mərasimdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti cənab Vladimir Putinin rəhbərliyi altında bütün sahələrdə köklü və əsaslı islahatların həyata keçirildiyini vurğulayaraq ölkələrimiz arasında hərtərəfli, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə genişlənməsini məmnunluqla qeyd edib.

Azərbaycan Prokurorluğunun Rusiya Federasiyasının İstintaq Komitəsi ilə sıx əməkdaşlıq etdiyini bildirən Baş prokuror tərəflər arasında 2010-cu və 2015-ci illərdə müvafiq olaraq Əməkdaşlıq Proqramının və "Əməkdaşlıq haqqında saziş"in imzalanmasını diqqətə çatdırıb. Hər iki razılaşmanın ölkələrimizin hüquq-mühafizə orqanları üçün mühüm əhəmiyyət kəsb etdiyi, qarşılıqlı səmərəli münasibətlərin və hüquqi əməkdaşlığın inkişafına töhfə verdiyi bildirilib.

Mərasimdə Rusiyanın Azərbaycan ilə bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayan Aleksandr Bastrıkin rəhbərlik etdiyi qurumun ölkəmizin hüquq-mühafizə orqanları ilə əməkdaşlığının möhkəmləndirilməsinə xüsusi önəm verdiyini, münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Tədbirdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu çıxış edərək Azərbaycan-Rusiya əlaqələrinin strateji xarakter daşıdığını, iqtisadi, humanitar və digər sahələrdə birgə layihələrin icra edildiyini, ölkələrimiz arasında əməkdaşlığın həm də regional səviyyədə intensiv inkişaf etdiyini bildirib.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti Belarus və Qazaxıstanın nümayəndə heyətləri ilə işgüzar görüşlər keçirib, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Gədəbəy rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov iyulun 28-də Gədəbəy rayon prokurorluğunun inzibati binasında Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 24 vətəndaşın şikayəti dinlənilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

## Baş prokuror Qax şəhərində vətəndaşları qəbul edib

Baş prokuror Zakir Qaralov avqustun 25-də Qax rayon prokurorluğunun inzibati binasında Qax, Balakən, Zaqatala, Şəki, Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Qax rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 19 vətəndaş qəbul edilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

## Baş prokuror Siyəzən şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov sentyabrın 27-də Siyəzən rayon prokurorluğunun inzibati binasında Siyəzən, Şabran, Quba, Qusar və Xaçmaz rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Siyəzən rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 17 vətəndaş qəbul edilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

***

Qəbullar zamanı həmçinin, müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunub.

Vətəndaşlar bölgə sakinlərinin yerində qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Cinayət qanununun geriyə qüvvəsi ilə əlaqədar cinayət-prosessual hüquq münasibətlərinin tənzimlənməsinə dair bəzi məsələlər

Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Bununla bağlı, ədalət mühakiməsinin obyektiv və hərtərəfli həyata keçirilməsi üçün həm təqsirləndirilən şəxsin, həm də cinayət hadisəsi ilə əlaqədar mənəvi, fiziki və maddi ziyana məruz qalmış tərəf kimi zərərçəkmiş şəxsin hüquqları və qanuni maraqları nəzərə alınmalıdır.

Konstitusiyanın 65-ci maddəsinə görə, məhkəmənin məhkum etdiyi hər bir şəxsin özü barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 35.1-35.3-cü maddələrinin mənasına görə, hər hansı şəxsin onun barəsində çıxarılmış məhkəmə hökmünün qanunsuz və əsassız olması ilə əlaqədar işə yenidən baxılması, barəsində çıxarılmış hökmlə təyin olunmuş cəzanın yüngülləşdirilməsini xahiş etmək hüquqlarının məhdudlaşdırılması yolverilməzdir.

CPM-in 35-ci maddəsində nəzərdə tutulmuş norma əsasən iki məqsədə xidmət edir: 1) cinayət mühakimə icraatının qanuniliyinin, ədalətliliyinin daha yüksək səviyyədə təmin olunmasına; 2) cinayət prosesi iştirakçılarının, xüsusən də təqsirləndirilən şəxsin hüquqlarının və qanuni mənafelərinin daha təminatlı şəkildə qorunmasına (3, s. 92.).

Cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermək hüququ beynəlxalq hüquqla da təmin edilir. Məsələn, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına dair 7 saylı Protokola (Strasburq, 22 noyabr 1984-cü il) əsasən, cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin barəsində çıxarılmış hökmə və ya təyin olunmuş cəzaya yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ vardır. Bu hüququn həyata keçirilməsi və onun həyata keçirilə biləcəyi əsaslar qanunla tənzimlənir. Qanunla xırda xətalar hesab olunan hüquqpozmalarla bağlı və ya müvafiq şəxs artıq birinci instansiyada ən yüksək məhkəmə tərəfindən məhkum edilsə və ya bəraət haqqında hökmə qarşı verilmiş apellyasiyaya baxış nəticəsində təqsirli hesab edilib məhkum edilsə, bu hüquqdan istisnaya yol verilir (5).

Yuxarı məhkəməyə şikayət vermək hüququ, ilk əvvəl, apellyasiya məhkəmə icraatının hesabına təmin olunur. Bu növ məhkəmə icraatının cinayət prosesinə daxil edilməsi ölkəmizdə yuxarı instansiya məhkəmə hakimlərinin işə baxılmasına cəlb edilməsi, onların daha təkmil bilik və təcrübələrindən istifadə olunması yolu ilə ədalətli məhkəmə araşdırılmasının əlavə təminatı kimi qəbul olunmalıdır.

Prof. F.M.Abbasovanın qeyd etdiyi kimi, birinci instansiya məhkəməsi tərəfindən ədalət mühakiməsinin düzgün həyata keçirilməsində, bu məhkəmələrin hökm və qərarlarının, qanuni, əsaslı və ədalətli olmasının təmin edilməsində apellyasiya instansiyası məhkəməsinin rolu böyükdür (1, s. 203-204).

Qanuni qüvvəyə minməmiş birinci instansiya məhkəməsinin qərarına (o cümlədən, hökmə) apellyasiya qaydasında yenidən baxılmasına məhkəmə səhvlərinin düzəldilməsinin vasitəsi kimi baxılmalıdır. Bu növ icraatda, məhkəməyəqədər və ya birinci instansiya məhkəmə araşdırılması zamanı işin hallarının tam və hərtərəfli

araşdırılmasına, törədilmiş cinayət əməlinə lazımi cinayət hüquqi qiymətin verilməsinə və cinayət prosesinin iştirakçılarının hüquqlarının təmin edilməsinə təsir etmiş və ya təsir edə biləcək qanun pozuntusu aşkarlanaraq aradan qaldırılır. Bu isə yuxarı məhkəməyə imkan yaradır ki, birinci instansiya məhkəməsi tərəfindən qəbul olunmuş qanunsuz və ya əsassız yekun qərarı vaxtında ləğv edərək yeni qərar (o cümlədən, hökm) qəbul etsin. Bununla da, qəsdən və ya yanlışlıq üzündən edilmiş pozuntuların nəticəsində yaranan məhkəmə səhvləri düzəldilmiş olur və bu səhvlərin ağır nəticələrinin qarşısı vaxtında alınır. L.V.Yurçenkonun təbirincə desək, cinayət mühakimə icraatında apellyasiya ədalətin təminatçısı kimi çıxış edir (6, s. 244).

Prof. M.Ə.Cəfərquliyev də qeyd edir ki, apellyasiya instansiyasında icraat cinayət prosesinin müstəqil mərhələsi olmaqla şəxsiyyətin hüquq və azadlıqlarının qorunmasına, ədalət mühakiməsinin məqsəd və vəzifələrinin yerinə yetirilməsinə, birinci instansiya məhkəməsinin hökm və qərarlarının qanuniliyinin və əsaslılığının təmin olunmasına real şərait yaradır (4, s. 583).

Bundan başqa, Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsi ilə müəyyən edilmişdir ki, hüquq pozuntusu törədildikdən sonra yeni qanunda bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinin (bundan sonra – CM) 10-cu maddəsində bu fikir inkişaf etdirilməklə göstərilir ki, əməlin cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Əməlin cinayət sayılmasını və bu əmələ görə cəzanı aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır, yəni həmin qanunun qüvvəyə minməsindən əvvəl müvafiq əməli törətmiş şəxslərə, habelə cəza çəkən, yaxud cəzasını çəkmiş, lakin məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslərə şamil edilir.

Qanunun geriyə şamil edilməsi cinayətin edildiyi vaxt qüvvədə olan qanunla məsuliyyətin həll edilməsinə dair ümumi qaydadan kənara çıxan haldır. Cinayət qanununun geriyə qüvvəsinin mənası ondan ibarətdir ki, əməlin kriminallığını müəyyən edən, yaxud məsuliyyəti ağırlaşdıran qanun qüvvəyə minənə qədər belə əməli törədən şəxslərə bu qanunun tətbiq edilməsinə yol verilmir. Əksinə, cinayət məsuliyyətini aradan qaldıran, cəzanı yüngülləşdirən, cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanun qüvvəyə minənə qədər törədilən cinayətlər barəsində geriyə şamil edilir (2, s. 33).

Məhkəmə təcrübəsində bəzi hallarda CM-ə, eləcə də, digər normativ-hüquqi aktlara dəyişikliklər edilməsi nəticəsində cinayət əməlini törətmiş şəxs barəsində cinayət qanununun geriyə qüvvəsinin tətbiqi ilə əlaqədar birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış qanuni və əsaslı hökm və ya qərarların ləğv edilməsinə və ya dəyişdirilməsinə zərurət yaranır.

Belə ki, CM-in 66 və 67-ci maddələrində cinayətlərin və ya hökmlərin məcmusu üzrə cəzaların təyin edilməsi və hər iki halda təyin edilmiş cəzaların tamamilə və ya qismən birləşdirilməsi nəzərdə tutulmuşdur.

Buna misal olaraq, Gəncə hərbi məhkəməsinin 22 aprel 2016-cı il tarixli hökmünə əsasən Müdafiə Nazirliyinin 812 nömrəli hərbi hissəsinin sabiq müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçusu, M.M.İ, 2015-ci ilin fevral ayının əvvəllərində buna dair heç bir səlahiyyəti olmadığı halda həmin hərbi hissənin kiçik çavuşu S.B.N.-a xidmət yerinin hərbi hissənin daha rahat şəraitli ehtiyat bölmələrinin birinə köçürülməsində köməklik göstərə biləcəyi ilə aldadaraq sonuncudan 1.200 manat məbləğində pulu etibardan sui-istifadə etmə və aldatma yolu ilə almış, S.B.N-a xeyli miqdarda ziyan vurmaqla əmlakını ələ keçirərək dələduzluq etmiş, eləcə də S.B.N-u ələ alma və sövdələşmə üsulu ilə rüşvət verməyə təhrik etdiyinə görə, CM-in 178.2.4 və 32.4, 312.1-ci maddələri ilə təqsirli bilinərək, 4 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş və M.M.İ.-n daha əvvəl törətdiyi cinayət

əməlinə görə Gəncə Apellyasiya Məhkəməsinin hərbi kollegiyasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə təyin edilmiş 3 il, 2 ay, 29 gün müddətinə azadlıqdan məhrum etmə cəzası hazırki hökmlə təyin edilmiş 4 il 6 ay azadlıqdan məhrum etmə cəza ilə qismən toplamaqla qəti olaraq 5 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Məhkum M.M.İ.-n törətdiyi cinayət əməli cinayət işinin ibtidai istintaq və məhkəmə baxışı zamanı tədqiq edilmiş sübutlarla təsdiq olunduğu, əməlinin tövsifi və ona təyin edilmiş cəzanın apellyasiya protesti və apellyasiya şikayət verilərək mübahisələndirilmədiyi üçün, hökm qanuni qüvvəyə minmişdir.

Daha sonra, Azərbaycan Respublikası Ali Məhkəməsinin 23 iyun 2016-cı il tarixli qərarı ilə Gəncə Apellyasiya Məhkəməsinin 24 dekabr 2015-ci il tarixli qərarının əməlin tövsifi hissəsində dəyişiklik edilərək məhkum M.M.İ.-n CM-in 178.2.4-cü maddəsi ilə tövsif olunmuş əməli CM-nin 178.1-ci maddəsinə tövsif edilərək Azərbaycan Respublikasının 6 may 2016-cı il tarixli Qanunu ilə CM-in 177-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndində dəyişiklik edilərək «xeyli miqdar» və «külli miqdar»da ifadə olunan məbləğlərin hədlərinin artırılması nəticəsində məhkumun əməlinin də artıq xeyli miqdarda dələduzluq (CM-in 178.2.4-cü maddəsi) kimi deyil, CM-in 178.1-ci maddəsində nəzərdə tutulmuş dələduzluq kimi qiymətləndirilməsi əsas götürülmüş və Gəncə Apellyasiya Məhkəməsinin 24 dekabr 2015-ci il tarixli qərarının qanunsuz olduğu üçün deyil, cinayət qanununun geriyə qüvvəsi haqqında CM-in 10.3-cü maddəsi tətbiq edilərək, məhkuma qəti olaraq 3 il 2 ay müddətinə azadlıqdan məhrum etmə cəzası müəyyən etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin həmin qərarına uyğun olaraq, əməlin tövsifi ilə bağlı apellyasiya məhkəməsinin qərarı dəyişdirilərək, təyin edilmiş cəza azaldığından M.M.İ.-n barəsində olan Gəncə hərbi məhkəməsinin 22 aprel 2016-cı il tarixli hökmünün cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsi hissəsində dəyişdirilməsi üçün zərurət yaranmışdır.

Belə ki, «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 6 may 2016-cı il tarixli Qanununun «Keçid müddəaları»nın 2.3-cü maddəsində göstərilir ki, həmin Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən, cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında, CPM ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılması müəyyən edilmişdir.

Cinayət-prosessual qanunvericiliyində qeyd edilən əsaslarla məhkəmənin qanuni hökmünün ləğv edilməsi və ya dəyişdirilməsi üçün konkret müddəa nəzərdə tutulmadığından, məhkəmə təcrübəsində belə hökmlərdən apellyasiya protesti verilərək, CPM-in 399.1.4-cü maddəsinə əsasən, yəni cinayət qanunu normasının düzgün tətbiq edilməməsi əsası ilə ləğv edilməsi çıxış yolu kimi tətbiq olunur.

Yuxarıda göstərilən Gəncə hərbi məhkəməsinin 22 aprel 2016-cı il tarixli və digər oxşar hökmlərin CPM-in 399.1.4-cü maddəsində əks olunmuş əsasla apellyasiya qaydasında dəyişdirilməsinə hər hansı qanuni zəmin mövcud olmadığından, belə hesab edirik ki, qanuni qüvvəyə minmiş məhkəmə hökmünün cinayət qanununun geriyə qüvvəsinin tətbiqi ilə əlaqədar dəyişdirilməsi yalnız hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında daha məqsədəmüvafiqdir.

Belə ki, CPM-in 509.1.1-509.1.9-cu maddələrində cinayət qanununun geriyə qüvvəsinin tətbiqi ilə əlaqədar hökmün dəyişdirilməsi imkanları təsbit olunmadığını nəzərə alaraq, həmin maddəyə yeni 509.1.9-cu hissənin əlavə edilməsini ("509.1.9. cinayət qanununun geriyə qüvvəsinin tətbiq edilməsi haqqında"), qüvvədə olan 509.1.9-cu maddənin isə 509.1.10-cu maddə hesab edilməsini təklif edirik.

Qeyd olunan təklifin davamı olaraq CPM-ə aşağıdakı məzmunda 517-1-ci maddənin də əlavə olunması təklif edilir.

“Maddə 517-1. Cinayət qanununun geriyə qüvvəsinin tətbiq edilməsi haqqında məsələlərə cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən baxılır”.

Cinayət-prosessual qanunvericilikdə digər bir boşluq isə ona səbəb olmuşdur ki, Ali Məhkəmə qanunun norması düzgün tətbiq edilmədən çıxarılmış məhkəmə qərarını qüvvədə saxlamış, bununla da cinayət törətmiş şəxs cinayət məsuliyyətindən kənarda qalmışdır.

Belə ki, Füzuli hərbi məhkəməsinin 10 fevral 2016-cı il tarixli hökmü ilə gizir M.M.B. CM-in 333.3-cü maddəsi ilə təqsirli bilinərək 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Hökmə əsasən, o, 2015-ci ildə 30 yanvardan 5 fevral tarixədək və 17 sentyabrdan 25 sentyabr tarixədək, üzrlü səbəblər olmadan bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olan müddətə xidmət yerini özbaşına tərk etmişdir.

M.M.B.-n hər iki halda xidmət yerini özbaşına tərk etməsi faktı üzrə, təhqiqat orqanının cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarları mövcud olmuş, ikinci əməldə təkrarçılıq tövsifedici əlaməti olduğundan prokurorluq orqanı tərəfindən, təhqiqat orqanının hər iki qərarı ləğv edilərək, M.M.B. barəsində CM-nın 333.3-cü maddəsi ilə cinayət işi başlanılmışdır.

Şirvan Apellyasiya Məhkəməsində müdafiə tərəfinin apellyasiya şikayətinə baxılarkən, birinci instansiya məhkəməsinin hökmü ləğv edilmiş və M.M.B-yə əməlində təkrarçılq tövsifedici əlamətinin olmadığı üçün 14 may 2016-cı il tarixli hökmlə CPM-in 42.1.2-ci maddəsinə əsasən əməlində cinayət tərkibi olmadığına görə CM-in 333.3-cü maddəsi ilə bəraət verilmişdir.

İş üzrə kassasiya protesti verilmiş, lakin Ali Məhkəmənin Hərbi kollegiyasının 29 sentyabr 2016-cı il tarixli qərarı ilə apellyasiya instansiyası məhkəməsinin hökmü dəyişdirilmədən qüvvəsində saxlanılmışdır.

CM-in 333.1 və 333.2-ci maddələrinin dispozisiyalarında nəzərdə tutulan təkrarçılıq tövsifedici əlamətinin konkret hansı hallarda tətbiq olunması ilə bağlı istintaq və məhkəmə orqanlarında fikir ayrılığı yarandığından bu müddəanın Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən şərh edilməsi üçün Baş prokuror tərəfindən sorğu ilə müvafiq müraciət edilmişdir.

Həmin sorğuya baxılaraq «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən 02.06.2017-ci il tarixli Qərar qəbul edilmişdir. Qərara əsasən, CM-in 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror CPM-in 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

CPM-in “Məhkəmələrin hökm və ya qərarlarına əlavə kasassiya qaydasında yenidən baxılması” fəslində məhkumun vəziyyətinin ağırlaşdırılması ilə bağlı əlavə kassasiya qaydasında işə baxılması nəzərdə tutulmadığından, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 02.06.2017-ci il tarixli Qərarı gələcəkdə bu cür hallara rast gəlinən zaman əmələ düzgün hüquqi qiymət verilməsi üçün istinad mənbəyi kimi istifadə edilməlidir.

**Xanlar Vəliyev,**
*Azərbaycan Respublikası Baş prokurorunun müavini -*
*Azərbaycan Respublikasının Hərbi prokuroru,*
*ədliyyə general-leytenantı,*
*hüquq üzrə fəlsəfə doktoru*

**İstifadə edilmiş ədəbiyyat:**


1. Abbasova F.M. Cinayət prosesi. Xüsusi hissə. Yenidən işlənmiş 2-ci nəşr. Dərslik. Bakı: Bakı Universiteti, 2016, 456 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / F.Y.Səməndərovun redaktəsi ilə. 2 cilddə, I hissə. Bakı: Hüquq Yayın Evi, 2015, 752 s.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümovun, B.C.Kərimovun və Ə.H.Hüseynovun redaktəsi ilə. Bakı: Digesta, 2016, 1336 s.
4. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı: Qanun, 2008, 768 s.
5. Волков Н.А. Реформирование Европейского Суда по правам человека на основе дополнительных протоколов к Европейской конвенции о защите прав человека и основных свобод / Международная научно-практическая конференция, посвященная 60-летию Европейской конвенции о защите прав человека и основных свобод, г. Кемерово, 2 ноября 2010 г., с. 48-53.
6. Юрченко Л.В. Апелляция по уголовным делам как способ гарантии обеспечения правосудности / Современные проблемы судебного права. Оренбург: ООО ИПК Университет, 2012, с. 244-251.



**Açar sözlər:** cinayət prosesi, qanunun qüvvəsi, yeni qanun, hökmün icrası qaydasında icraat, analiz, təkliflər.

**Ключевые слова:** уголовный процесс, сила закона, новый закон, производство в порядке исполнения приговора, анализ, предложения.

**Key words:** criminal trial, law force, new law, production as execution of a sentence, analysis, offers.


## Некоторые вопросы регулирования уголовно-процессуальных правоотношений в связи с обратной силой уголовного закона


**Резюме:** Любое преступление, прежде чем за него лицо может быть наказано, требует определенного времени для предварительного расследования. В течение этого времени может быть принят новый закон, который смягчает либо, наоборот, усиливает ответственность за деяния, совершенные до его издания. И в этой связи возникает вопрос о распространении нового закона на действия, совершенные до его принятия. Иными словами, должна разрешиться проблема обратной силы уголовного закона.  Закон, устраняющий уголовную ответственность, либо смягчающий наказание или иным образом улучшающий положение лица, совершившего преступление, имеет обратную силу, то есть распространяется на лиц, совершивших преступление до вступления данного закона в силу. В статье рассматриваются некоторые вопросы регулирования уголовно-процессуальных правоотношений в связи с обратной силой уголовного закона.


## Some questions of regulation of criminal procedure legal relationship in connection with retroactive effect of the criminal law


**Summary:** Any crime before the person can be punished for it, demands certain time for preliminary investigation. During this time the new law which softens can be adopted or, on the contrary, enhances responsibility for the acts made to his edition. And in this regard there is a question of distribution of the new law on the actions made before its acceptance. In other words, the problem of retroactive effect of the criminal law has to be resolved. The law eliminating criminal liability or commuting a penalty or otherwise improving position of the person who has committed a crime has retroactive force, that is extends to the persons who have committed a crime to the introduction of this law in force. In article some questions of regulation of criminal procedure legal relationship in connection with retroactive effect of the criminal law are considered.

# Sürücülük hüququnun məhdudlaşdırılmasının cinayət-hüquqi əhəmiyyəti barədə

Məqalənin başlığına çıxarılmış məsələnin mahiyyətinin əslinə tez çatmaq və sonrakı təhlil işini asanlaşdırmaq üçün konkret təcrübəyə müraciət etmək düzgün olar. Tutaq ki, şəxsin yol hərəkəti qaydalarını pozması nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxs ölür. Araşdırma zamanı bəlli olur ki, şəxsin sürücülük vəsiqəsinin etibarlılıq müddəti bitib. Hadisəyə qədər bundan şəxsin özünün də məlumatı olmur. Bu əmələ görə şəxsə qarşı Cinayət Məcəlləsinin 263-1.3-cü maddəsi ilə ittiham irəli sürülür. Situasiya modelləşdirilsə də, müvafiq işlər üzrə oturuşmuş məhkəmə-istintaq təcrübəsini əks etdirir, yəni təcrübədə belə işlər olub və yəqin ki, bundan sonra da olacaq. Hakimlər, prokurorlar və müstəntiqlərlə söhbətlər zamanı "sürücülük vəsiqəsinin etibarlılıq müddəti bitmiş şəxs"i "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" hesab edir və bu yanaşmanın hüquqi cəhətdən nəinki əsaslı olması, hətta onun alternativsizliyi barədə mülahizələr söyləyirlər.

Bu mövqe ilk baxışdan əsaslı görünür. Doğrudan da, Cinayət Məcəlləsinin (bundan sonra – CM) 263-1.3-cü maddəsində göstərilir ki, "Eyni əməllər ("Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması"nın "alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsi" əməlləri nəzərdə tutulur – müəl.) ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda" cinayət məsuliyyətinə səbəb olur. Bu elementlərin arasından model situasiyaya uyğun olanlar mücərrədləşdirilsə təxminən "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən avtomobili idarə edərkən yol hərəkəti qaydalarını pozması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda" məzmunlu hüquqi tərkib yaranır.

CM-nin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" statusu Konstitusiya Məhkəməsi tərəfindən şərh edilib. Məhkəmənin 24.09.2014-cü il tarixli qərarının nəticəvi hissəsində yazılıb ki, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir". Qərarın arqumentləri sırasında "Yol hərəkəti haqqında" Qanunun 33-cü maddəsinin V hissəsinin "şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa – sürücülük vəsiqəsi dəyişdirilənədək" müvəqqəti *məhdudlaşdırıla* bilər – məzmunlu norması diqqəti cəlb edir. Qeyd edilən Qanunun doğrudan da belə məzmunda norması var. Qərarda bu məsələ ilə bağlı aralıq nəticə də var: "Sürücülük vəsiqəsinin etibarlıq müddətinin qurtarması fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququnu məhdudlaşdırır. ("Yol hərəkəti haqqında" Qanunun 33-cü maddəsinin V hissəsinin 1-ci bəndi). Belə olan halda CM-nin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" müddəası, həmçinin hadisə törədilən zaman sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarmış şəxsi ehtiva edir.".

Belə çıxır ki, yazının əvvəlində təsvir olunan modelləşdirilmiş işdə, *"sürücülük vəsiqəsinin etibarlılıq müddəti bitmiş şəxs"i "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs"* hesab edən hakimlər, prokurorlar və müstəntiqlər haqlıdırlar.

"Şeytan detallarda gizlənir" fikrini dilinə gətirmiş şəxs müdriklikdən uzaq olmayıb. Doğrudan da, bəzən görürsən ki, ilk baxışdan zahirən xırda və əhəmiyyətsiz görünən bir element aid olduğu sistemin keyfiyyətini dəyişir. Bu halda da bəzi detallara diqqətlə yanaşmaqla həqiqətə yaxınlaşmaq olar. *"Hüququ müvəqqəti məhdudlaşdırılmış"* və ya *"hüququnu təsdiqləyən rəsmi sənədin etibarlılıq müddəti bitmiş"* əlamətlərə malik subyektlərin arasındakı semantik natarazlıq ilk baxışdan əhəmiyyətsiz, formal görünür. Digər tərəfdən, bu subyektlərin arasında eynilik işarəsi də qoymaq mümkün deyil, formal məntiqin qanunlarına zidd olar.

"Hüquq"u onu təsdiqləyən sənədin etibarlılığından asılı etmək hamılıqla qəbul edilmiş, o cümlədən Azərbaycan cəmiyyətinin hüquq düşüncəsinə nüfuz etmiş baxışlara uyğun gəlmir. "Hüquq"ların heç də hamısı mövcudluğu üçün, tanınması üçün formal əlamətin, "vəsiqə"nin olmasını, onun etibarlılığını

tələb etmir. Məsələn, insanlara müəyyən etibarlılıq müddəti olan "təqsirsizlik hüququ" vəsiqəsi verilməsi heç kimin ağlına gəlmir.

Kimsə deyə bilər ki, rəsmi sənəd "xüsusi hüquq"lar üçün nəzərdə tutulub. Lakin nəzərə almaq gərəkdir ki, "hüquq"un "xüsusi" və ya "ümumi" sinfə aid edilməsi onun fundamental keyfiyyətlərini dəyişmir. Tutaq ki, müstəntiqin xidməti vəsiqəsinin etibarlılıq müddəti bitib, onun isə bundan xəbəri olmayıb, bir müddət prosessual vəzifələrini belə vəziyyətdə yerinə yetirib, yəni cinayət işləri üzrə ibtidai istintaq aparıb. Həmin dövrdə toplanmış və məhkəməyə göndərilmiş icraat materialları etibarsızmı hesab edilməlidir?! Təbii ki, yox. Təcrübədə də belədir. Belə misalları "xüsusi səlahiyyətlər"ni ("hüquq" səlahiyyətə daxildir) təsdiqləyən vəsiqə, şəhadətnamə və ya digər rəsmi sənəd daşıyan vəzifəli şəxslərlə davam etmək olar.

Növbəti "detal" CM-nin 263-1-ci maddəsinin dispozisiyası ilə bağlıdır. Qarşıya təbii sual çıxır: qanunvericiyə nə mane olurdu ki, bu maddənin dispozisiyasında Konstitusiya Məhkəməsinin qərarının nəticəvi hissəsinin 1-ci bəndindəki normanı qeyd edilən maddənin dispozisiyasına daxil etməyib?! Əgər həmin maddənin dispozisiyası "Bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan - *sürücülük vəsiqəsi olmayan, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan* şəxs tərəfindən törədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda" məzmunlu olsaydı, hüququn və qanunvericilik texnikasının hansı kanonları pozulardı?! Cavab aydın və birmənalıdır: heç biri.

Və ya, olmazdımı ki, qanun normasının özündə CM-nin 263-1-ci maddəsinə bir "Qeyd" hissəsi əlavə edilərdi və orada yazılardı ki, *"sürücülük vəsiqəsi olmayan, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxs bu maddədə nəzərdə tutulmuş əməlləri törətdikdə bu əməllərin nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilir"?!* Təcrübədə belə hüquq texnikasına rast gəlmək mümkündür. Məsələn, İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İXM) 327-ci maddəsinə "Qeyd" hissəsinin 2-ci bəndində (Maddə 327. Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması) göstərilib ki, "Sürücülük vəsiqəsi idarə etdiyi nəqliyyat vasitəsinin kateqoriyasına uyğun olmayan sürücü bu Məcəllədə nəzərdə tutulmuş balla qiymətləndirilən xətaları törətdikdə, *o, nəqliyyat vasitəsini idarə etmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə* inzibati məsuliyyətə cəlb edilir və ona törətdiyi xətaya müvafiq bal təyin edilir.".

Təbii ki, bu düşüncələr qanunverici ilə Konstitusiya Məhkəməsinin motivasiyasının müxtəlifliyinə dair mülahizələrdən yan dura bilmir.

Daha bir "detal" nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılması anlayışındadır. Bu "proses" hər hansı bir proseduraya əməl etmədən öz-özünə, avtomatik qaydada baş verir, yoxsa əksinə, bunun üçün müəyyən bir hüquqi prosedura lazımdır? Sualın cavabının əhəmiyyəti həlledicidir. Əgər *"məhdudlaşdırma"* hüquqi prosedura ilə aparılmalıdırsa, məsuliyyət məsələsi həll edilərkən həmin "prosedura"nın olub-olmaması, baş verib-verməməsi aydınlaşdırılmalıdır. Məlum olsa ki, "prosedura" olub və onun müddəalarına əməl edilib, onda *"hüququn məhdudlaşdırılması"* hüquqi cəhətdən əsaslı hesab edilməli və o, yuridik fakt kimi qəbul olunmalıdır. Bunun əksi məlum olsa, təbii ki, "hüququn məhdudlaşdırılması" yuridik fakt kimi qəbul edilməməlidir, özü də vəsiqənin və ya digər, buna bənzər rəsmi sənədin etibarlılıq müddətinin uzunluğundan asılı olmayaraq.

Qanun normalarına müraciət edək. Fiziki şəxsə verilmiş *xüsusi hüququn məhdudlaşdırılması*na İXM-nin ayrıca bir maddəsi – 27-ci maddəsi həsr edilib. Bu fakt özlüyündə göstərir ki, "xüsusi hüququn məhdudlaşdırılması" üçün hüquq norması ilə təsbit edilmiş qaydalar mövcuddur. Bundan başqa, maddədə müəyyən edilib ki, "Fiziki şəxs ona verilmiş xüsusi hüquqdan istifadə qaydasını kobud şəkildə və ya müntəzəm pozduqda həmin hüquq bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş hallarda iki aydan iki ilədək müddətə məhdudlaşdırılır"; "Bu Məcəllənin 327.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, fiziki şəxsə verilmiş xüsusi hüququn *məhdudlaşdırılması yalnız hakim tərəfindən tətbiq edilir;* "Bu Məcəllənin 327.7-ci maddəsində göstərilən balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 20 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların nəqliyyat vasitəsini idarə etmək hüququ *məhdudlaşdırılır"* (27.1, 27.2, 27.4-cü maddələr).

İXM-nin 94.2-ci maddəsində dəqiqləşdirilib ki, "Sürücü tərəfindən nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması növündə inzibati tənbehin tətbiq edilməsini nəzərdə tutan xətalar törədildikdə, inzibati xəta haqqında iş üzrə qərar çıxarılanadək sürücülük vəsiqəsi götürülür və həmin şəxslərə nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənəd verilir. Nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması haqqında qərar qəbul edildikdə sürücülük vəsiqəsi qaytarılmır. Nəqliyyat vasitəsini idarə etmək *hüququnun məhdudlaşdırılması* haqqında qərardan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayətin verilməsi üçün nəzərdə tutulmuş müddət qurtaranadək, yaxud şikayət üzrə qərar qəbul edilənədək, nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin qüvvədə olma müddəti uzadılır".

Açıq-aşkar görünür ki, *"xüsusi hüququn məhdudlaşdırılması"* (nəqliyyat vasitəsini idarə etmək hüququ da bura daxildir – müəl.) inzibati tənbehdir (İXM-nin 22.1.4-cü maddəsi (Maddə 22. İnzibati tənbeh növləri) "fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması"nı inzibati tənbeh kimi təsbit edib), onun tətbiq edilməsi əsasları və qaydası hüquq normaları ilə tənzimlənir.

Sonrakı "detal" özünə Konstitusiya Məhkəməsinin qərarının əsaslandırıcı hissəsində yer tapmış "Yol hərəkəti haqqında" Qanunun 33-cü maddəsinin V hissəsinin 1-ci bəndinin məzmunundadır. Diqqət yetirin: qanunverici burada "şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa" fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququnun sürücülük vəsiqəsi dəyişdirilənədək, yəni müvəqqəti *məhdudlaşdırıla bilər",* – deyir. O, demir ki, *"məhdudlaşdırılır",* məhz "məhdudlaşdırıla *bilər"* deyir. Maddi hüquq norması olmaqla bu norma onun məhdudlaşdırılmasına həsr edilmiş İXM-nin prosessual normalarını tamamlayır və onunla vahid normalar kompleksi təşkil edir.

**Deməli, sürücülük vəsiqəsinin etibarlılıq müddətinin bitməsi yalnız o zaman onun sahibini "nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxs" hesab etməyə (və onun barəsində CM-nin 263-1-ci maddəsini tətbiq etməyə) əsas verir ki, bu fakt qanunvericiliklə müəyyən edilmiş qaydada müəyyən edilmiş və müvafiq prosessual sənədlə rəsmiləşdirilmiş olsun.**

Məqalənin əvvəlində təsvir edilən kazusun şərtlərinə görə, şəxs özünün sürücülük vəsiqəsinin etibarlılıq müddətinin bitməsi barədə xəbərsiz olub, bu ona yalnız hadisədən sonra bəlli olub; onun nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması barədə hüquqi icraat aparılmayıb, rəsmi qərar qəbul edilməyib, yəni onun bu hüququ *məhdudlaşdırılmayıb.* Şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququ məhdudlaşdırılmayıbsa, o, **"nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" hesab edilə və bu əlamətə görə CM-nin 263-1-ci maddəsinin (Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma) subyekti ola bilməz.** Çünki, "nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs" statusunun Konstitusiya Məhkəməsinin qeyd edilən qərarında göstərilmiş qalan üç elementi – (1) hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsinin olmaması, (2) qanunvericiliyə uyğun olaraq şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməsi, (3) onun həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmaması situasiyanın şərtlərində nəzərdə tutulmayıb. Digər müvafiq hallar mövcud olduqda, belə şəxs həmin maddə ilə deyil, CM-nin 263-cü maddəsi (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) ilə cinayət məsuliyyəti daşıya bilər. Bu tərkiblər arasında fərq əhəmiyyətlidir, çünki birinci cinayət "ağır", sonuncu cinayət isə "az ağır" təsnifata aiddir. Şəxs üçün "az ağır" və ya "ağır" cinayət törətməkdə təqsirli bilinmək böyük əhəmiyyət kəsb edir, bu, onun hüquqlarının kəmiyyət və keyfiyyət parametrlərini müəyyənləşdirir. Məsələn, CM-nin 59.1.1-ci maddəsi hadisələrin təsadüfi axarı zəminində ilk dəfə olaraq az ağır cinayətin törədilməsini cəzanı yüngülləşdirən hal hesab edir, ağır cinayətin törədilməsini isə etmir. Belə fərqlər "Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə" (CM-nin 74-cü maddəsi); "Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə" (CM-nin 75.1.2-ci maddəsi), "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə" (CM-nin 78.3.1-ci maddəsi), "Cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə" (CM-nin 77.1-ci maddəsi), "İttiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə" (CM-nin 80.1.2-ci maddəsi), məhkumluğun hesablanması (CM-nin 83.3.3-cü maddəsi) zamanı və digər hallarda cinayət təqibinə məruz qalan və ya məhkum olunan şəxs üçün konkret əhəmiyyət kəsb edir.

**Nazir Bayramov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2017-ci ilin I yarımili ərzində görülmüş işlərlə bağlı hesabatla çıxış edib




İyulun 17-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2017-ci ilin I yarımili ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Mətbuat konfransını giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, şəffaflığın daha da artırılması və azad rəqabətin tam təmin olunması, bürokratik əngəllərin, aradan qaldırılması, vətəndaş-məmur təmasının minimuma endirilməsi, daha çevik və keyfiyyətli idarəetməni təmin edilməsi məqsədilə ardıcıl hüquqi və institusional islahatlar 2017-ci ilin I yarısında da uğurla həyata keçirilmişdir.

Kamran Əliyev xüsusi vurğulamışdır ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi fəaliyyətini hesabat dövründə də uğurla davam etdirmişdir.

Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 3656 müraciətinə baxılmış, həmçinin 125 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 75-i (60%) üzrə cinayət işi başlanmış, 50 (40%) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 29 nəfər vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 2151 müraciət daxil olmuş, həmin müraciətlərin 16-sı üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər mü-



raciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

Hesabat dövrü ərzində Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 2, habelə əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 6 olmaqla cəmi 8 cinayət işi başlanmışdır.

2017-ci ilin I yarımili ərzində Baş İdarədə dövlət və özəl sektorda çalışan 133 vəzifəli şəxs barəsində 103 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işləri 54 şəxs barəsində 43 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 34 şəxs barəsində 27 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 19 şəxs barəsində 14 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 3 şəxs barəsində 2 iş rüşvət alma (passiv rüşvətxorluq), 11 şəxs barəsində 5 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 4 şəxs barəsində 4 iş vəzifə saxtakarlığı, 2 şəxs barəsində 2 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 2 şəxs barəsində 2 iş hüquq verən rəsmi sənədləri istifadə etmə məqsədi ilə saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə, 3 şəxs barəsində 3 iş kompyter sisteminə qanunsuz daxil olma və qalanları digər cinayət faktları ilə əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 12.804.958 manat ziyanın ibtidai araşdırma mərhələsində 3.612.243 manat və ya 28,2% ödənilməsi təmin edilmiş, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulması ilə yanaşı, qanunla nəzərdə tutulmuş digər tədbirlər görülmüşdür.

Hesabat dövründə Baş İdarə rəisi, Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən ümumilikdə 872 vətəndaşın qəbul edilməsi təmin edilmişdir.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmiş, 1 xüsusat üzrə inzibati pozuntu aşkar edildiyindən

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 54, 410.3-cü maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilərək aidiyyəti üzrə müvafiq məhkəməyə göndərilmiş, araşdırılması üçün aidiyyəti üzrə müvafiq qurumlara göndərilmiş müraciətlər üzrə aparılmış xidməti yoxlamalar nəticəsində isə vəzifəli şəxslərin hərəkətlərində aşkar edilmiş cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 12 vəzifəli şəxs xəbərdarlıq, 5 vəzifəli şəxs töhmət, 2 vəzifəli şəxs şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb edilmiş, 10 nəfər isə vəzifəsindən azad edilmişdir. Habelə, araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 1 təqdimat göndərilmişdir.

Kamran Əliyev qeyd etmişdir ki, hesabat dövrü ərzində korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş ən mühüm sənədlərdən biri də Azərbaycan Respublikası Prezidenti tərəfindən 10 fevral 2017-ci il tarixdə qəbul olunmuş “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamdır. Qeyd olunan Sərəncamda Azərbaycan Respublikasının Baş Prokurorluğuna edilmiş tövsiyələrdən irəli gələrək həmin sənəddə əks olunmuş vəzifələrin icrası məqsədilə 31 may 2017-ci il tarixli 10/41 nömrəli əmrlə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə bəzi əmrlərə dəyişikliklər edilmişdir.

Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 26 aprel tarixli Sərəncamı ilə təsdiq edilən “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı” çərçivəsində həyata keçirilmiş bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər öz bəhrəsini vermiş, korrupsiya hüquqpozmaları ilə bağlı məlumat verən şəxslərin müdafiəsini təmin etmək məqsədilə bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilmişdir. K.Cəfərov korrupsiyaya qarşı həyata keçirilmiş mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulamışdır.

Bundan başqa, Kamal Cəfərov “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”na müvafiq olaraq dövlət orqanlarının bu sahədə fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılması, qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılması, institusional potensialın və hesabatlılıq sisteminin gücləndirilməsi sahələrində mühüm nailiyyətlərin əldə edilməsini qeyd etmişdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələrindən “Konstitusiya Araşdırmalar Fondu”nun rəhbəri Əliməmməd Nuriyev və “Şəffaflıq Azərbaycan” təşkilatının icraçı direktoru Rəna Səfərəliyeva çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2017-ci ilin I yarımili ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər.

Sonra QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

Mətbuat konfransında bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Belə ki, cari il fevralın 20-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində ölkəmiz üzrə qəbul edilmiş hesabat təqdim edilmişdir. Təqdimatda OECD-nin rəsmiləri xanım Tatyana Xvanska və xanım Rusudan Mikelidze, eləcə də Azərbaycan Respublikasının dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının və kütləvi-informasiya vasitələrin nümayəndələri iştirak etmişdir.

Həmçinin, cari ilin 6-7 iyun tarixlərində üzvlərinin böyük əksəriyyəti islam dövlətlərindən olan Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası keçirilmişdir.

Yüksək səviyyəli tədbirə Türkiyə, İran, Qazaxıstan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan, Tacik-

istan və Türkmənistanın prokurorluq orqanlarının, ixtisaslaşdırılmış antikorrupsiya qurumlarının, ombudsmanlarının və digər dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, ECO baş katibinin müavini, Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) icraçı katibi və digər beynəlxalq təşkilatların nümayəndələri qatılmışlar. Tədbirdə, həmçinin dövlət və hökumət rəsmiləri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının və QHT-lərin nümayəndələri, Milli Məclisin deputatları iştirak etmişdir.

Tədbir zamanı Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərləri və ombudsmanlarının 3-cü illik konfransına sədr seçilmişdir.

Tədbir çərçivəsində dövlət başçısının yürütdüyü siyasət nəticəsində ölkəmizin dünyada, o cümlədən İslam aləmində qarşılıqlı əməkdaşlığa mühüm töhfə verdiyi diqqətə çatdırılmış, İqtisadi Əməkdaşlıq Təşkilatının mühüm funksiyalar həyata keçirən nüfuzlu qurum olduğu vurğulanaraq üçüncü iclasın əhəmiyyəti xüsusi qeyd edilmişdir.

Tədbirin sonunda təşkilati məsələlər müzakirə olunmuş və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə korrupsiyaya qarşı mübarizəyə dair Bakı Bəyannaməsi qəbul edilmişdir.

Bundan başqa, Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində, Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan dövlətlər qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (İAP), Beynəlxalq Antikorrupsiya Akademiyasi (İACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmışdır.

Hesabat dövründə, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən xarici dövlətlərin hüquq mühafizə orqanları ilə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. Belə ki, cari il martın 1-də Azərbaycan Respublikası və Bolqarıstan Baş Prokurorluqları arasında Baş İdarə və "ASAN xidmət"in bir illik fəaliyyətlərinin öyrənilməsini nəzərdə tutan birgə fəaliyyət planı imzalanmışdır. Bu planın müddəalarına uyğun olaraq Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyətinin mayın 10-12-də Bolqarıstan Respublikasına, həmin dövlətin Baş prokurorunun müavinlərinin rəhbərlik etdikləri nümayəndə heyətinin isə may ayının 22-25-də ölkəmizə işgüzar səfərləri olmuşdur.

Bununla yanaşı, iyunun 11-14-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir. Səfər zamanı Baş prokuror Zakir Qaralovla görüş keçirilmiş və görüşdə ölkələrimizin prokurorluqları arasındakı əlaqələrin inkişafında dövlət başçılarımızın xüsusi rolu qeyd edilmiş, hüquqi əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğu bildirilmişdir.

Həmçinin, nümayəndə heyəti Azərbaycan Respublikasının məhkəmə hüquq islahatları, habelə "ASAN xidmət" mərkəzləri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətləri ilə yaxından tanış olmuşlar.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar Baş İdarə əməkdaşlarının kütləvi informasiya vasitələrində məqalələri dərc edilmişdir.

Mətbuat konfransında əminlik ifadə olunmuşdur ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bundan sonra da öz fəaliyyətini dövlət səviyyəsində göstərilən yüksək etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirərək cinayətkarlığa qarşı ciddi və səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsini təmin edəcəkdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahına və profilaktiki tədbirlərə yönəldirlər

Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları 2017-ci ilin birinci yarısında da cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirməsi və həyata keçirilən tədbirlərin kəsərliliyinin artırılmasına yönəltmişlər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının işçiləri tərəfindən cari ilin hər rüb üçün tərtib olunmuş tədbirlər planına uyğun olaraq yerli icra hakimiyyəti və özünüidarə orqanlarının əməkdaşları ilə birlikdə vətəndaşlarla görüşlər keçirilmiş, onlara qanunvericiliyin tələbləri izah edilmiş, hüquqpozmaların vaxtında qarşısının alınması üçün müvafiq profilaktiki tədbirlər həyata keçirilmiş, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl edilməsi ilə bağlı Muxtar Respublika ərazisində fəaliyyət göstərən istehsalat və tikinti müəssisələrində maarifləndirmə işi aparılmışdır.

Cari ilin birinci yarımili ərzində Muxtar Respublika Prokurorluğunun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı 635 halda təbliğat işi aparılmışdır ki, onların 33-ü müvafiq prokuror məruzələrinə, 421-i mühazirə, söhbət və digər şifahi təbliğat formalarına, 181-i isə kütləvi informasiya vasitələrindəki çıxışlara aid olmuşdur. Həyata keçirilmiş hüquqi təbliğatın 251-i vətəndaşların konstitusion hüquq və azadlıqları, 101-i cinayətkarlıqla mübarizə, 87-i hərbi vətənpərvərlik, 78-i ətraf mühitin mühafizəsi haqqında, 71-i alkoqolizm və narkomanlıqla mübarizə, 47-i iqtisadi fəaliyyət sahəsində qanun pozuntuları haqqında olmuş, eyni zamanda yetkinlik yaşına çatmayanlar və gənclərlə əlaqədar 115 halda auditoriyalarda çıxışlar edilmişdir. Kütləvi informasiya vasitələrində 181 dəfə – televiziyada 38, radioda 31, mətbuatda isə 112 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmişdir ki, onlardan 21-i prokurorun fəaliyyəti ilə bağlı olmuşdur. 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Dövlət televiziyasında fəaliyyət göstərən Hüquqi təminat və informasiya şöbəsi tərəfindən hazırlanan “Qanunçuluq” televiziya proqramında 12 dəfə, “Naxçıvanın səsi” radiosunda 31 dəfə müxtəlif aktual hüquqi mövzularda verilişlər efirdə nümayiş olunmuşdur. Muxtar Respublikanın mətbu orqanlarında təşkil olunan “Hüquq guşəsi”ndə vətəndaşların sualları cavablandırılmışdır.

Muxtar Respublikanın tabe rayon (şəhər) prokurorluqları tərəfindən də bu tədbirlər davamlı olaraq həyata keçirilmişdir. Belə ki, prokurorluğun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı Naxçıvan şəhər prokurorluğu tərəfindən 61 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 19 dəfə, Babək rayon prokurorluğu tərəfindən 80 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 38 dəfə, Şərur rayon prokurorluğu tərəfindən 106 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 22 dəfə, Culfa rayon prokurorluğu tərəfindən 96 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 17 dəfə, Ordubad rayon prokurorluğu tərəfindən 84 halda təbliğat işi aparılmış kütləvi informasiya vasitələrində 17 dəfə, Şahbuz rayon prokurorluğu tərəfindən 52 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 11 dəfə, Kəngərli rayon prokurorluğu tərəfindən 39 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 8 dəfə və Sədərək rayon prokurorluğu tərəfindən 44 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 14 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmişdir.

Hüquq təbliğatın zəif olması, təzadlı, düzgün olmayan tərbiyə ilə cəmiyyətdə hüquq pozuntularının sayının artması arasında səbəbli əlaqə heç kimdə şübhə yaratmır. Bu səbəbdən hüquq tərbiyəsi və hüququn təbliği cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən həmişə diqqət mərkəzində saxlanılır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan şəhər prokurorluğunda “Ekstradisiya, beynəlxalq hüquqi yardım göstərilməsi və cinayət təqibinin həyata keçirilməsi” mövzusunda seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə “Ekstradisiya, beynəlxalq hüquqi yardım göstərilməsi və cinayət təqibinin həyata keçirilməsi” mövzusunda növbəti seminar avqustun 10-da Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə Naxçıvan şəhər prokurorluğunda keçirilib.

Bildirilib ki, ekstradisiya dövlətlərarası münasibətlərdə cinayət törətmiş şəxslərin səlahiyyətli cinayət yurisdiksiyasına verilməsi ilə bağlı hüquqi prosedur olaraq, beynəlxalq cinayətkarlıqla dövlətlərarası mübarizədə tətbiq edilən ən mühüm institutlardan biridir. Cinayət törətmiş şəxslərin verilməsi məsələlərinin həll edilməsində beynəlxalq əməkdaşlığın hüquqi əsaslarını ekstradisiya və hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələr, ayrı-ayrı beynəlxalq cinayətkarlıq növlərinə qarşı mübarizə haqqında konvensiyalar, ekstradisiya haqqında milli normativ hüquqi aktlar müəyyən edir. Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıqda aktiv iştirak edən Azərbaycan Respublikası bir sıra ölkələrlə ekstradisiya və cinayət işləri üzrə hüquqi yardım haqqında müqavilələr imzalayıb, ölkəmizdə bu sahədə xüsusi qanunvericilik aktları qəbul edilib.

Seminar iştirakçılarına bu sahəyə aid qüvvədə olan milli və beynəlxalq qanunvericiliyin müddəaları, eləcə də Azərbaycan Respublikası Baş prokurorunun “Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə” 14.02.2007-ci il tarixli 10/13 nömrəli əmrinin tələbləri barədə geniş məlumat verilib.

İştirakçıları maraqlandıran suallar cavablandırılıb, tövsiyələr verilib.

***

# Şərur rayon prokurorluğunda “Asılma zamanı, asfiksiya nəticəsində baş verilmiş ölüm hallarında hadisə yerinə baxış və digər istintaq hərəkətlərinin metodika və taktikası” mövzusunda seminar keçirilib

Sentyabrın 5-də Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə “Asılma zamanı, asfiksiya nəticəsində baş verilmiş ölüm hallarında hadisə yerinə baxış və digər istintaq hərəkətlərinin metodika və taktikası” mövzusunda Şərur rayon prokurorluğunda seminar keçirilib.

İstintaq şöbəsinin rəisi Elşad Ağayev tərəfindən intihar hadisələrində şəxsin psixi vəziyyəti, mexaniki asfiksiya hallarında baş vermiş ölüm hadisələrinin ümumi xarakteristikası, özünü öldürmə həddinə çatdırma, hadisə yerinə baxışın, asılma zamanı asfiksiya nəticəsində baş vermiş ölüm hadisələrinin istintaq metodikası izah edilib, məhkəmə-istintaq təcrübəsi barədə məlumat verilib, mövzu üzrə suallar cavablandırılıb, Azərbaycan Respublikası Baş Prokurorluğunun “Asılma zamanı, asfiksiya nəticəsində baş verilmiş ölüm hallarında hadisə yerinə baxış və digər istintaq hərəkətlərinin metodika və taktikası” metodiki vəsaitlə tanış olunması tövsiyə edilib.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəhbərliyi Moldovada səfərdə olub




Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Moldova rəsmilərinin dəvəti ilə iyulun 3-4-də bu ölkədə səfərdə olmuşdur.

Səfər çərçivəsində ölkəmizin nümayəndə heyəti Moldovann Milli Antikorrupsiya Mərkəzinin inzibati binası və fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Nümayəndə heyətini qəbul edən Mərkəzin rəisi Viorel Ketraru ilə görüşdə Moldova Milli Antikorrupsiya Mərkəzinin nümayəndə heyətinin 2016-cı ilin dekabrında ölkəmizə səfəri xatırlanmışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qarşı tərəfə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı aparılan məqsədyönlü institusional və qanunvericilik islahatları barədə məlumat vermişdir. Görüşdə ölkələrimiz arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

Bununla yanaşı, Azərbaycan nümayəndə heyətinin Moldovanın Baş Prokurorluğuna səfəri çərçivəsində bu ölkənin Baş prokuroru Eduard Xarunjena ilə ikitərəfli görüş keçirilmişdir.

Görüşdə Moldova Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə müzakirələr aparılmış, prioritet əməkdaşlıq sahələri müəyyənləşdirilmişdir.

Sonra ölkəmizin nümayəndə heyəti Moldovanın Antikorrupsiya Prokurorluğunun inzibati binasını ziyarət etmişdir.

Antikorrupsiya Prokurorluğunun Baş prokuroru Viorel Morar ilə ikitərəfli görüşdə ölkələrimizdə korrupsiya və digər mənfi hallara qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər barədə müzakirələr aparılmış, eləcə də qarşı tərəfə "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə geniş məlumat verilmişdir. Azərbaycanın bu sahədə qazandığı nailiyyətlər Moldova rəsmiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsinə maraq ifadə edilmişdir.

Görüşlərdə, Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Pekində Beynəlxalq Prokurorlar Assosiasiyasının illik konfransı və ümumi yığıncağında təmsil olunub

Sentyabrın 9-dan 15-dək Çin Xalq Respublikasının paytaxtı Pekində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 44-cü iclası, 22-ci illik konfransı və ümumi yığıncağı keçirilmişdir.

"İctimai maraqların qorunması naminə cinayət təqibi – dəyişən cəmiyyətlərdə yeni çağırışlar və imkanlar" mövzusunda keçirilmiş konfransda 90 ölkədən 450 nəfər, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişdir.

Tədbirdə prokurorluğu Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Nümayəndə heyətinin rəhbəri BPA-nın İcraiyyə Komitəsinin 44-cü iclasında çıxış edərək Azərbaycanın assosiasiya ilə əməkdaşlığa xüsusi önəm verdiyini vurğulamışdır. İclasda 2002-ci ildə Bakıda qurumun İcraiyyə Komitəsinin iclasının keçirildiyi və tədbir iştirakçılarının ümummilli lider Heydər Əliyev tərəfindən qəbul olunduğunu xatırlanmışdır. İcraiyyə Komitəsinin gələn il Bakıda keçirilməsi nəzərdə tutulan 45-ci iclası ilə əlaqədar ölkəmizə aid xüsusi hazırlanmış geniş videotəqdimat nümayiş etdirilmişdir.

Assosiasiyanın Senatının iclasında Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, BPA-nın senatoru və fəxri üzvü Fikrət Məmmədovun dərin salamlarını çatdıran Kamran Əliyev qurumun inkişaf perspektivləri ilə bağlı müzakirələrdə fəal iştirak etmişdir.

Sentyabrın 11-də Assosiasiyanın 22-ci İllik Konfransının və Ümumi Yığıncağının açılış mərasimində Çin Xalq Respublikasının Sədri Si Cinpinin müraciəti səslənmişdir, Çinin baş prokuroru Çao Cianmin və BPA-nın prezidenti Gerhard Yaroş çıxış etmişlər.

Tədbirdə Azərbaycanın nümayəndə heyəti fəal və səmərəli iştirak etmişdir. Belə ki, korrupsiyaya qarşı mübarizə problemlərinə həsr olunmuş xüsusi iclasının aparılması Azərbaycanın nümayəndə heyətinin rəhbərinə həvalə edilmişdir. Kamran Əliyev çıxışında Azərbaycanda korrupsiyaya qarşı mübarizə fəaliyyətinin Prezident cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykəndiyini bildirmiş, həyata keçirilmiş mütərəqqi hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat vermişdir. O, Prezidentin təşəbbüsü ilə yaradılan "ASAN xidmət" mərkəzlərinin korrupsiyaya qarşı mübarizədə əhəmiyyətini vurğulamışdır.

Nümayəndə heyətinin rəhbəri ölkəmizin antikorrupsiya strategiyasında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirildiyini diqqətə çatdırmışdır, bunun məntiqi nəticəsi olaraq, Azərbaycanın BPA-nın fəaliyyətinə əhəmiyyətli töhfələr verməklə xüsusi fəallıq göstərdiyini bildirmişdir. Kamran Əliyevin cari iclasın gələcək inkişaf perspektivləri, mühüm və mürəkkəb məsələlərin həllində üzv ölkələrin rolu ilə bağlı konkret təklifləri müzakirələr nəticəsində qəbul edilmişdir.

Korrupsiyaya qarşı mübarizənin qarşısında duran çətinliklərə həsr olunmuş xüsusi iclasda məruzəçi qismində iştirak edən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev sessiyanın yekunlarına dair hazırlanmış hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. İclasın sonunda Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar, broşür və bukletlər tədbir iştirakçılarına təqdim edilmişdir.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvlərinin BPA-nın prezidenti Gerhard Yaroş və digər rəsmilər ilə görüşləri keçirilmişdir. Bundan başqa, nümayəndə heyəti Çin, Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan və Estoniyanın baş prokurorları, eləcə də Böyük Britaniya, Kanada, Rusiya, Qazaxıstan, Özbəkistan, Ukrayna, Koreya Respublikası və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək, ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparılmışdır.

Görüşlərdə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı iştirak etmişdir.

BPA-nın növbəti İllik Konfransın 2018-ci ilin sentyabrında Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilməsi qərara alınmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyəti prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi istiqamətində fəaliyyət uğurla davam etdirilir.

İyulun 1-dən 7-dək Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasında (IACA) "Təcrübə elmə qovuşur" mövzusunda keçirilən sayca 4-cü Yay Akademiyasında (IACSA) Azərbaycan Prokurorluğunu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokurorları Natiq Eyvazov və Ziya Hacıyev təmsil etmişlər.

40-a yaxın dövlətin nümayəndələrinin iştirak etdiyi tədbirdə bir sıra nüfuzlu elm və araşdırma mərkəzlərinin professorları, beynəlxalq təşkilatların və şirkətlərin rəhbər şəxsləri, ekspertləri mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürü hesab edilən korrupsiyanın yaranma səbəbləri, onun qarşısının alınmasında qabaqcıl mübarizə üsulları, qabaqlayıcı tədbirlər, bu sahədə qarşılıqlı beynəlxalq əməkdaşlığın rolu və digər mövzularda məruzələr edilmişdir.

Tədbirin sonunda iştirakçılara IACSA-nı müvəffəqiyyətlə bitirmələrinə dair sertifikatlar təqdim olunmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə səmərəli əməkdaşlıq davam edir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlığını uğurla davam etdirir.

Sentyabrın 12-13-də Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 18-ci monitorinq görüşü, sentyabrın 14-də isə Şəbəkənin rəhbər qrupunun 22-ci görüşü keçirilmişdir.

Tədbirlərdə Şəqri Avropa və Mərkəzi Asiya regionuna daxil olan ölkələrin yüksək vəzifəli dövlət rəsmiləri, eləcə də nüfuzlu beynəlxalq və qeyri-hökümət təşkilatlarının çoxsaylı nümayəndələri iştirak etmişlər. Görüşlərdə prokurorluğu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Səbuhi Alıyev təmsil etmişdir.

İstanbul Fəaliyyət Planının 18-ci monitorinq görüşü çərçivəsində ötən ilin sentyabr ayında qeyd edilən Fəaliyyət Planının IV monitorinq raundu çərçivəsində ölkəmiz üzrə qəbul edilmiş hesabatda nəzərdə tutulmuş tövsiyələrin icra vəziyyəti ilə bağlı İnkişaf Hesabatı dinləməyə çıxarılaraq Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr müzakirə edilmiş, bu istiqamətdə Azərbaycan Respublikasının ölkə Prezidenti cənab İlham Əliyevin möhkəm siyasi iradəsinə əsaslanan mühüm addımlar ataraq uğurlar əldə etməsi xüsusi qeyd edilmiş, ölkə rəhbərliyi səviyyəsində həyata keçirilən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və cəza tədbirlərinin vəhdəti, o cümlədən qanunvericilik



və institusional islahatların davam etdirilməsi yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyevin 18 noyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi alqışlanmış, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının fəaliyyətini əhatə edən anti-korrupsiya siyasəti ilə bağlı tövsiyələrin icrasında əhəmiyyətli inkişafın əldə edilməsi müəyyən edilmiş, dövlət idarəçiliyində şəffaflığın təmin edilməsində xüsusi rol oynayan "ASAN" xidmət mərkəzlərinin, həmçinin korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibinin həyata keçirilməsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin uğurlu fəaliyyəti önə çəkilmişdir.

Müzakirələr nəticəsində IV monitorinq raund hesabatı üzrə ölkəmizə ünvanlanmış cəmi 31 tövsiyədən hazırkı mərhələdə 21-nin uğurla icra edilməsi müəyyən edilmişdir ki, bu da hesabatın qəbul edilməsindən keçən qısa vaxt ərzində ümumi tövsiyələrin təxminən 70 %-nin ölkəmiz tərəfindən icra edilməsi deməkdir.

Monitorinq görüşlərində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları iki ölkə üzrə dəyərləndirmələrdə ekspert qismində iştirak etmişlər. Belə ki, Baş İdarənin Əməliyyat idarəsinin rəis müavini Emin Mürsəliyev Qazaxıstan Respublikası, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev isə Tacikistan Respublikası üzrə IV monitorinq raundu çərçivəsində görüşlərdə iştirak edərək qeyd edilən ölkələrin korrupsiya cinayətləri ilə bağlı cinayət təqibi, prokurorluq və məhkəmə hakimiyyəti orqanlarında şəffaflığın təmin edilməsi istiqamətlərində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirləri dəyərləndirərək rəy vermiş, müvafiq tövsiyələrin və hesabatların hazırlanmasında iştirak etmişlər.

Azərbaycan Respublikası 2003-cü ildən OECD ilə təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində əməkdaşlıq edir və indiyədək respublikamız üç monitorinq mərhələsini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə edib. Hazırki IV monitorinq raundu 2019-cu ilədək qəbul edilmiş tövsiyələr üzrə bir sıra tədbirlərin icra edilməsini ehtiva edir və ölkəmiz üzrə növbəti İnkişaf Hesabatının 2018-ci ilin may ayında təqdim edilməsi nəzərdə tutulub.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli, 14 fevral tarixli 529-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 54.2-ci maddəyə "594-1," rəqəmlərindən sonra "594-2," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 594-2-ci maddə əlavə edilsin:

**"Maddə 594-2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması**

**594-2.0.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına, yəni:

**594-2.0.1.** konfidensiallığı təmin edilməli olan korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs barədə məlumatın açıqlanmasına;

**594-2.0.2.** korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna verdiyi məlumatla bağlı hədə-qorxu gəlmə, təzyiqlərə məruz qoyma, təhqir etmə və ya maddi zərər vurulmasına görə –

səkkiz yüz manatdan min üç yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 594-2.0.2-ci maddəsində nəzərdə tutulmuş əməllərdə cinayət tərkibinin əlamətləri olduqda, həmin əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 aprel 2017-ci il
№624-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 437-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033) 93-1-ci maddəsinin birinci hissəsində "və hakimlərin" sözləri ", hakimlərin və məhkəmə sisteminin" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 aprel 2017-ci il
№626-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000) 99.2-ci maddəsində "Dövlət Sosial Müdafiə Fonduna ayırmalar" sözləri "məcburi dövlət sosial sığorta haqqı" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2017-ci il
№704-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 563-VQD nömrəli, 566-VQD nömrəli, 575-VQD nömrəli, 25 aprel tarixli 633-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 44.2-ci maddədə "on min" sözləri "iyirmi min" sözləri ilə əvəz edilsin.

**2.** 128-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**3.** 129-cu maddə üzrə:

**3.1.** 129.1-ci maddənin sanksiyasında "ikiilədək müddətə islah işləri" sözlərindən əvvəl "min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**3.2.** 129.2-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözlərindən əvvəl "min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

**4.** 130-cu maddə üzrə:

**4.1.** 130.1-ci maddənin sanksiyasında "bir ilədək müddətə islah işləri" sözlərindən əvvəl "min manatdan iki min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**4.2.** 130.2-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözlərindən əvvəl "min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

**5.** 131-ci maddə üzrə:

**5.1.** 131.1-ci maddənin sanksiyasında "üç yüz" sözləri "yeddi yüz manatdan min iki yüz" sözləri ilə əvəz edilsin;

**5.2.** 131.2-ci maddənin sanksiyasında "beş yüz" sözləri "min iki yüz manatdan iki min dörd yüz" sözləri ilə, "altı ayadək" sözləri isə "bir ilədək" sözləri ilə əvəz edilsin.

**6.** 134-cü maddənin sanksiyasında "iki yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin.

**7.** 136-cı maddə üzrə:

**7.1.** 136.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "dörd min manatdan yeddi min" sözləri ilə əvəz edilsin;

**7.2.** 136.2-ci maddənin sanksiyasından "beş yüz manatdan min manatadək miqdarda cərimə və ya" sözləri çıxarılsın;

**7.3.** aşağıdakı məzmunda 136.2-1-ci maddə əlavə edilsin:

**"136.2-1.** Bu Məcəllənin 136.1-ci və 136.2-ci maddələri ilə nəzərdə tutulan əməllər ehtiyatsızlıqdan şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda –

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**7.4.** 136.3-cü maddənin:

**7.4.1.** dispozisiyasından "və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına" sözləri çıxarılsın;

**7.4.2.** sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**8.** 137.1-ci maddənin sanksiyasında "iki min manatdan beş min" sözləri "dörd min manatdan səkkiz min" sözləri ilə əvəz edilsin.

**9.** 138-ci maddə üzrə:

**9.1.** 138.1-ci, 138.3-cü və 138.4-cü maddələrin sanksiyasında "beş yüz manatdan min" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin;

**9.2.** 138.2-ci maddənin:

**9.2.1.** dispozisiyasından "ölümünə və ya" sözləri çıxarılsın;

**9.2.2.** sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan üç min" sözləri ilə, "beş ilədək" sözləri isə "dörd ilədək" sözləri ilə əvəz edilsin;

**9.2.3.** aşağıdakı məzmunda 138.2-1-ci maddə əlavə edilsin:

**"138.2-1.** Bu Məcəllənin 138.2-ci maddəsi ilə nəzərdə tutulan əməllər ehtiyatsızlıqdan şəxsin ölümünə səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**10.** 139.1-ci maddənin sanksiyasında "üç yüz manatdan beş yüz" sözləri "iki min beş yüz manatdan beş min" sözləri ilə əvəz edilsin.

**11.** 141-ci maddə üzrə:

**11.1.** 141.1-ci maddənin sanksiyasında "iki yüz" sözləri "beş yüz manatdan min" sözləri ilə əvəz edilsin;

**11.2.** 141.2-ci maddənin sanksiyasında "üç yüz" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin;

**11.3.** 141.3-cü maddənin sanksiyasında "üç yüz manatdan beş yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**12.** 142.1-ci maddənin sanksiyasında "üç yüz" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**13.** 143-cü maddənin sanksiyasında "üç yüz" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**14.** 143-1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin.

**15.** 147.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**16.** 148-ci maddənin sanksiyasında "üç yüz manatdan min" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**17.** 148-1-ci maddənin sanksiyasında "min beş yüz" sözləri "iki min" sözləri ilə əvəz edilsin.

**18.** 154-cü maddə üzrə:

**18.1.** 154.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**18.2.** 154.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**19.** 155-ci və 156.1-ci maddələrin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin.

**20.** 157.1-ci və 158.1-ci maddələrin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin.

**21.** 159-cu maddə üzrə:

**21.1.** 159.1-ci maddənin sanksiyasında "yüz manatdan" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin;

**21.2.** 159.2-ci maddənin sanksiyasında "iki yüz manatdan altı yüz" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin;

**21.3.** 159.3-cü maddənin sanksiyasında "üç yüz manatdan yeddi yüz" sözləri "iki min beş yüz manatdan beş min" sözləri ilə əvəz edilsin;

**21.4.** 159.4-cü maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "beş min manatdan səkkiz min" sözləri ilə əvəz edilsin.

**22.** 159-1-ci maddə üzrə:

**22.1.** 159-1.1-ci maddənin sanksiyasında "iki yüz manatdan altı yüz" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin;

**22.2.** 159-1.2-ci və 159-1.3-cü maddələrin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**23.** 160-cı maddə üzrə:

**23.1.** 160.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin;

**23.2.** 160.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "dörd min manatdan yeddi min" sözləri ilə əvəz edilsin.

**24.** 161.1-ci və 161.2-ci maddələrin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min beş yüz manatdan beş min" sözləri ilə əvəz edilsin.

**25.** 162-ci maddə üzrə:

**25.1.** 162.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin;

**25.2.** aşağıdakı məzmunda 162.3-cü maddə əlavə edilsin:

**"162.3.** Bu Məcəllənin 162.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**26.** 163.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "beş yüz manatdan min" sözləri ilə əvəz edilsin.

**27.** 164-cü maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**28.** 165-ci maddə üzrə:

**28.1.** 165.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**28.2.** 165.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**29.** 165-1-ci maddə üzrə:

**29.1.** 165-1.1-ci maddənin sanksiyasında "yüz əlli manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**29.2.** 165-1.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**30.** 165-2-ci maddə üzrə:

**30.1.** 165-2.1-ci maddənin sanksiyasında "yüz əlli manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**30.2.** 165-2.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**31.** 165-3-cü maddə üzrə:

**31.1.** 165-3.1-ci maddənin sanksiyasında "yüz əlli manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**31.2.** 165-3.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**32.** 166-cı maddə üzrə:

**32.1.** 166.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**32.2.** 166.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**33.** 171-1.1-ci maddənin sanksiyasından "səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya" sözləri çıxarılsın.

**34.** 174-cü maddənin sanksiyasında "yüz manatdan üç yüz" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin.

**35.** 175-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin.

**36.** 177-ci maddə üzrə:

**36.1.** 177.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**36.2.** 177.2-ci maddənin sanksiyasında "üç min manatdan beş min" sözləri "dörd min manatdan yeddi min" sözləri ilə əvəz edilsin.

**37.** 178-ci maddə üzrə:

**37.1.** 178.1-ci maddənin sanksiyasında "yüz manatdan yeddi yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**37.2.** 178.2-ci maddənin sanksiyasında "üç min manatdan beş min" sözləri "dörd min manatdan yeddi min" sözləri ilə əvəz edilsin.

**38.** 179-cu maddə üzrə:

**38.1.** 179.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**38.2.** 179.2-ci maddənin sanksiyasında "iki min manatdan üç min" sözləri "dörd min manatdan yeddi min" sözləri ilə əvəz edilsin.

**39.** 184-cü maddə üzrə:

**39.1.** 184.1-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin;

**39.2.** 184.2-ci maddənin sanksiyasında "iki min manatdan üç min" sözləri "dörd min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**40.** 185.2-ci maddənin sanksiyasında "iki min manatdan üç min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**41.** 186.1-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**42.** 187-ci maddə üzrə:

**42.1.** 187.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**42.2.** 187.2-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**43.** 189-cu maddə üzrə:

**43.1.** 189.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin;

**43.2.** 189.2-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**44.** 189-1-ci maddə üzrə:

**44.1.** 189-1.1-ci maddənin sanksiyasında "min manatdan üç min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin;

**44.2.** 189-1.2-ci maddənin sanksiyasında "üç min manatdan beş min" sözləri "dörd min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**44.3.** 189-1.4-cü maddənin sanksiyasında "beş min" sözləri "altı min" sözləri ilə əvəz edilsin.

**45.** 190.1-ci və 191-ci maddələrin sanksiyasında "beş yüz" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**46.** 190.2-ci maddədən "qanuni qüvvəyə minmiş məhkəmə qərarını pozmaqla və ya" sözləri çıxarılsın.

**47.** 193-1.1-ci maddənin sanksiyasında "iki min manatdan beş min" sözləri "dörd min manatdan səkkiz min" sözləri ilə əvəz edilsin.

**48.** 194.1-ci maddənin sanksiyasında "min manatdan üç min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**49.** 199.1-ci maddənin sanksiyasında (hər iki halda) və 199.2-ci maddənin sanksiyasında "tutma və" sözləri "tutma və ya" sözləri ilə əvəz edilsin.

**50.** 200.3-cü maddənin sanksiyasında "yeddi min manatdan doqquz min" sözləri "on min manatdan on beş min" sözləri ilə əvəz edilsin.

**51.** 200-2.2-ci maddənin sanksiyasında "dörd min manatdan altı min" sözləri "on min manatdan on beş min" sözləri ilə əvəz edilsin.

**52.** 202.1-ci və 202-1.1-ci maddələrin sanksiyasında "yüz manatdan" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə əvəz edilsin.

**53.** 205.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**54.** 205-1-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**55.** 213-1.1-ci maddənin sanksiyasında "min manatdan" sözlərindən əvvəl "iki" sözü əlavə edilsin.

**56.** 213-2-ci maddənin sanksiyasında "min manatdan beş min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**57.** 213-3.1-ci maddənin sanksiyasında "min manatdan beş min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**58.** 223.1-ci maddənin:

**58.1.** dispozisiyasında "əgər bu əməl insan ölümünə və ya digər ağır nəticələrə səbəb ola bilərdisə" sözləri "ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda" sözləri ilə əvəz edilsin;

**58.2.** sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**59.** 225.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**60.** 227.1-ci maddənin sanksiyasında "min manatdan dörd min" sözləri "dörd min manatdan səkkiz min" sözləri ilə əvəz edilsin.

**61.** 233-3-cü maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "min manatdan min beş yüz" sözləri ilə əvəz edilsin.

**62.** 234.5-ci maddənin sanksiyasında "iki yüz manatdan min" sözləri "min manatdan iki min beş yüz" sözləri ilə əvəz edilsin.

**63.** 237.1-ci maddələrin sanksiyasında "iki yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**64.** 240.4-cü maddənin sanksiyasında "iki yüz manatdan min" sözləri "min manatdan iki min beş yüz" sözləri ilə əvəz edilsin.

**65.** 244.1-ci maddənin sanksiyasında "dörd yüz saatdan" sözlərindən əvvəl "iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

**66.** 244-1.1-ci maddənin sanksiyasında "iki ilədək" sözlərindən əvvəl "on min manatdan on beş min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin.

**67.** 246-cı maddənin sanksiyasında "beş yüz manatdan iki min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**68.** 248.1-ci maddənin sanksiyasında "iki yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**69.** 249.1-ci və 249.2-ci maddələrin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**70.** 250-ci maddə üzrə:

**70.1.** 250.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**70.2.** 250.2-ci maddənin sanksiyasında "beş yüz manatdan iki min" sözləri "altı min manatdan doqquz min" sözləri ilə əvəz edilsin.

**71.** 251-ci maddə üzrə:

**71.1.** 251.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**71.2.** 251.2-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "altı min manatdan doqquz min" sözləri ilə əvəz edilsin.

**72.** 252-ci maddə üzrə:

**72.1.** 252.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**72.2.** 252.2-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "altı min manatdan doqquz min" sözləri ilə əvəz edilsin.

**73.** 253.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "dörd min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**74.** 254.1-ci və 255-ci maddələrin sanksiyasında "yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**75.** 256-cı maddə üzrə:

**75.1.** 256.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin;

**75.2.** 256.2-ci maddənin sanksiyasında "yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**75.3.** 256.3-cü maddənin sanksiyasında "min manatdan iki min" sözləri "altı min manatdan doqquz min" sözləri ilə əvəz edilsin.

**76.** 257-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**77.** 258-ci maddə üzrə:

**77.1.** 258.1-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin;

**77.2.** 258.2-ci maddənin sanksiyasında "yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin;

**77.3.** 258.3-cü maddənin:

**77.3.1.** dispozisiyasında "258.1-ci maddəsində" sözləri "258.1-ci və 258.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**77.3.2.** sanksiyasında "altı yüz manatdan min" sözləri "altı min manatdan doqquz min" sözləri ilə əvəz edilsin.

**78.** 261-ci maddənin sanksiyasında "yüz manatdan beş yüz" sözləri "üç min manatdan altı min" sözləri ilə, "Qeyd" hissəsində isə "iki yüz" sözləri "iki min" sözləri ilə əvəz edilsin.

**79.** 265.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**80.** 266.1-ci maddənin sanksiyasında "beş yüz manatdan min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**81.** 267.1-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

**82.** 268.1-ci maddənin sanksiyasında "iki min manatdan beş min" sözləri "üç min manatdan altı min" sözləri ilə əvəz edilsin.

**83.** 270-ci maddənin sanksiyasında "beş yüz manatdan iki min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin.

**84.** 271-ci maddə üzrə:

**84.1.** 271.1-ci maddənin sanksiyasında "min manatdan iki min" sözləri "iki min manatdan dörd min" sözləri ilə əvəz edilsin;

**84.2.** 271.2-ci maddənin sanksiyasında “iki min manatdan üç min” sözləri “dörd min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**85.** 272-ci maddə üzrə:

**85.1.** 272.1-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin;

**85.2.** 272.2-ci maddənin sanksiyasında “iki min manatdan üç min” sözləri “dörd min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**86.** 273-cü maddə üzrə:

86.1. 273.1-ci və 273.2-ci maddələrin sanksiyasında “min manatdan iki min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin;

**86.2.** 273.3-cü maddənin sanksiyasında “min manatdan iki min” sözləri “dörd min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**87.** 273-1-ci maddə üzrə:

**87.1.** 273-1.1-ci, 273-1.2-ci və 273-1.3-cü maddələrin sanksiyasında “iki min manatdan üç min” sözləri “üç min manatdan beş min” sözləri ilə əvəz edilsin;

**87.2.** 273-1.4-cü maddənin sanksiyasında “üç min manatdan dörd min” sözləri “beş min manatdan səkkiz min” sözləri ilə əvəz edilsin.

**88.** 273-2-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin.

**89.** 283.1-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “səkkiz min manatdan on iki min” sözləri ilə əvəz edilsin.

**90.** 286-cı maddə üzrə:

**90.1.** 286.1-ci və 286.2-ci maddələrin sanksiyasında “iki yüz manatdan beş yüz” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin;

**90.2.** 286.3-cü maddənin sanksiyasında “beş yüz manatdan səkkiz yüz” sözləri “iki min manatdan üç min” sözləri ilə əvəz edilsin.

**91.** 288-ci maddə üzrə:

**91.1.** 288.1-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin;

**91.2.** 288.2-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin.

**92.** 289-cu maddə üzrə:

**92.1.** 289.1-ci maddənin sanksiyasında “üç yüz manatadək” sözləri “beş yüz manatdan min manatadək” sözləri ilə əvəz edilsin;

**92.2.** 289.2-ci maddənin sanksiyasında “üç yüz manatdan beş yüz” sözləri “min manatdan min beş yüz” sözləri ilə əvəz edilsin.

**93.** 293.1-ci maddənin sanksiyasında “üç min manatdan dörd min” sözləri “dörd min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**94.** 294.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**95.** 295.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “beş min manatdan səkkiz min” sözləri ilə əvəz edilsin.

**96.** 296.1-ci maddənin sanksiyasında “üç yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**97.** 297.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin.

**98.** 298-ci maddənin sanksiyasında “üç yüz manatdan beş yüz” sözləri “min manatdan min beş yüz” sözləri ilə əvəz edilsin.

**99.** 299-cu maddə üzrə:

**99.1.** 299.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin;

**99.2.** 299.2-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**100.** 300-cü maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin.

**101.** 301.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**102.** 302-ci maddə üzrə:

**102.1.** 302.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin;

**102.2.** 302.2-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “dörd min manatdan altı min” sözləri ilə əvəz edilsin;

**102.3.** 302.3-cü maddənin sanksiyasında “min manatdan” sözlərindən əvvəl “iki” sözü əlavə edilsin.

**103.** 303-cü maddə üzrə:

**103.1.** 303.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin;

**103.2.** 303.2-ci maddənin sanksiyasında “min manatdan üç min manatadək miqdarda cərimə və ya beş yüz” sözləri “iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya min manatdan iki min” sözləri ilə əvəz edilsin.

**104.** 306-cı maddə üzrə:

**104.1.** 306.1-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin;

**104.2.** 306.2-ci maddənin sanksiyasında “dörd min manatdan altı min” sözləri “beş min manatdan yeddi min” sözləri ilə əvəz edilsin.

**105.** 307-ci maddə üzrə:

**105.1.** 307.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan iki min beş yüz” sözləri ilə əvəz edilsin;

**105.2.** 307.2-ci maddənin sanksiyasında “iki min manatdan beş min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**106.** 308.1-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin.

**107.** 308-1.1-ci maddənin sanksiyasında “səkkiz min manatdan on min” sözləri “doqquz min manatdan on üç min” sözləri ilə əvəz edilsin.

**108.** 309.1-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “iki min manatdan dörd min” sözləri ilə əvəz edilsin.

**109.** 310-cu maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**110.** 312-ci maddə üzrə:

**110.1.** 312.1-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “beş min manatdan səkkiz min” sözləri ilə əvəz edilsin;

**110.2.** 312.2-ci maddənin sanksiyasında “iki min manatdan dörd min” sözləri “səkkiz min manatdan on iki min” sözləri ilə əvəz edilsin.

**111.** 312-1-ci maddə üzrə:

**111.1.** 312-1.1-ci maddənin sanksiyasında “üç min manatdan beş min” sözləri “altı min manatdan on min” sözləri ilə əvəz edilsin;

**111.2.** 312-1.2-ci maddənin sanksiyasında “min manatdan iki min” sözləri “dörd min manatdan yeddi min” sözləri ilə əvəz edilsin.

**112.** 313-cü və 316.1-ci maddələrin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**113.** 314-cü maddə üzrə:

**113.1.** 314.1-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin;

**113.2.** aşağıdakı məzmunda 314.3-cü maddə əlavə edilsin:

**“314.3.** Bu Məcəllənin 314.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda –

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

**114.** 316-1-ci maddə üzrə:

**114.1.** 316-1.1-ci maddənin sanksiyasında “yüz manatdan beş yüz” sözləri “beş yüz manatdan min” sözləri ilə əvəz edilsin;

**114.2.** 316-1.2-ci maddənin sanksiyasında “beş yüz manatdan min” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**115.** 318.1-ci maddənin sanksiyasında “iki yüz manatdan beş yüz” sözləri “min beş yüz manatdan üç min” sözləri ilə əvəz edilsin.

**116.** 318-1.1-ci maddənin sanksiyasında “iki min manatdan beş min” sözləri “dörd min manatdan səkkiz min” sözləri ilə əvəz edilsin.

**117.** 320-ci maddə üzrə:

**117.1.** 320.1-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin;

**117.2.** 320.2-ci maddənin sanksiyasında “iki yüz manatdan beş yüz” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin.

**118.** 322-ci maddə üzrə:

**118.1.** 322.1-ci maddənin sanksiyasında “beş yüz” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin;

**118.2.** 322.2-ci maddənin sanksiyasında “min manatdan üç min” sözləri “üç min manatdan altı min” sözləri ilə əvəz edilsin.

**119.** 323-cü maddə üzrə:

**119.1.** 323.1-ci maddənin sanksiyasından “beş yüz manatdan min manatadək miqdarda cərimə və ya” sözləri çıxarılsın;

**119.2.** 323.1-1-ci maddənin sanksiyasından “min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya” sözləri çıxarılsın.

**120.** 325-ci maddənin sanksiyasında “üç yüz” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin.

**121.** 326-cı maddə üzrə:

**121.1.** 326.1-ci maddənin sanksiyasında “beş yüz” sözləri “min manatdan iki min” sözləri ilə əvəz edilsin;

**121.2.** 326.2-ci maddənin sanksiyasında “üç yüz” sözləri “min manatdan min beş yüz” sözləri ilə əvəz edilsin.

**122.** 347-ci maddənin sanksiyasında “iki yüz” sözləri “min manatdan min beş yüz” sözləri ilə əvəz edilsin.

**123.** 348.1-ci maddənin sanksiyasında “beş yüz” sözlərindən əvvəl “min beş yüz manatdan iki min” sözləri əlavə edilsin.

**124.** 349.1-ci maddənin sanksiyasında “beş yüz” sözləri “iki min manatdan üç min” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2017-ci il
№707-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 563-VQD, 566-VQD, 573-VQD, 575-VQD nömrəli və 25 aprel tarixli 633-VQD nömrəli qanunları) 143-1-ci maddəsinin adında və dispozisiyasında "metodlarından" sözü "üsullarından" sözü ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№711-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 56; 2002, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2008, № 6, maddə 462, № 7, maddə 602) 22-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan ödənişlər yalnız nağdsız qaydada həyata keçirilir.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№722-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 258; 2004, № 3, maddə 133; 2005, № 10, maddə 871; 2009, № 2, maddə 46; 2010, № 3, maddə 178; 2014, № 4, maddə 329; 2016, № 6, maddə 1003) 14-cü maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Bu maddənin üçüncü və dördüncü hissələrində nəzərdə tutulan birdəfəlik müavinət yalnız nağdsız qaydada ödənilir.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№723-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 258; 2004, № 3, maddə 133; 2005, № 10, maddə 871; 2009, № 2, maddə 46; 2010, № 3, maddə 178; 2014, № 4, maddə 329; 2016, № 6, maddə 1003) 1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"terrorçu – hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və ya icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxsdir;".

**2.** Beşinci abzasın birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"terror təşkilatı – hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və ya icraçı qismində iştirak edən, terror aktlarını hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən terrorçu şəxslərin qrupu və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№733-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323,

№ 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 563-VQD, 566-VQD, 573-VQD və 575-VQD nömrəli, 25 aprel tarixli 633-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-1.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmçinin bu Məcəllənin 99-1.1-ci maddəsində nəzərdə tutulan əmlak məhkum tərəfindən hədiyyə kimi verildikdə və ya öz bazar dəyərindən əhəmiyyətli dərəcədə aşağı qiymətə satıldıqda vicdanlı sahiblərin hüquqlarına xələl gətirmədən müsadirə edilir.".

**2.** 99-2-ci maddənin mətnində "99-1.1.2 – 99-1.1.4-cü maddələrində" sözləri "99-1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№734-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 565-VQD nömrəli, 14 aprel tarixli 588-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddə üzrə:

**1.1.** 1.0.7-ci maddədə "Qanunun 9-12-ci maddələrində" sözləri "Qanunda" sözü ilə əvəz edilsin;

**1.2.** 1.0.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"1.0.8.** monitorinqdə iştirak edən digər şəxslər – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə bu Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirən qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslər, daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər, lotereya və idman mərc oyunları təşkilatçıları, vəkillər, notariuslar, hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri, auditor xidmətləri göstərən şəxslərdir;";

**1.3.** 1.0.9-cu maddədən "9-12-ci maddələrinin" sözləri çıxarılsın;

**1.4.** 1.0.10-cu maddədən "hüquqi şəxs olan" sözləri çıxarılsın;

**1.5.** 1.0.12-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"1.0.12.** benefisiar mülkiyyətçi – pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, o cümlədən xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən və (və ya) adından maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirildiyi fiziki şəxs və ya hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxsdir;";

**1.6.** 1.0.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.18-ci maddə əlavə edilsin:

**"1.0.18.** işgüzar münasibətlər – monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin peşəkar fəaliyyətinin həyata keçirilməsi zamanı öz müştəriləri ilə formalaşdırdıqları, tərəflərin qarşılıqlı hüquq və vəzifələrinə əsaslanan, birdəfəlik xarakter daşımayan peşəkar münasibətlərdir;".

**2.** 3.0.2-ci maddədən "hüquqi şəxs olan" sözləri çıxarılsın.

**3.** 4.0.8-ci, 4.0.10-cu və 4.0.11-ci maddələr ləğv edilsin.

**4.** 5-ci maddə üzrə:

**4.1.** 5.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"5.1.** Monitorinqdə iştirak edən digər şəxslər tərəfindən bu Qanunun 9-11-ci və 12-1-ci maddələrinin tələbləri aşağıdakı qaydada tətbiq olunur:

**5.1.1.** qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslər, lotereya və idman mərc oyunları təşkilatçıları bu Qanunun 9.2.2-ci maddəsində nəzərdə tutulmuş məbləğdə nağd əməliyyatlar apardıqda;

**5.1.2.** daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər daşınmaz əmlakın alqı-satqısı üzrə əməliyyatları həyata keçirdikdə;

**5.1.3.** notariuslar, vəkillər, hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri, auditor xidmətləri göstərən şəxslər aşağıdakı əməliyyatları həyata keçirdikdə:

**5.1.3.1.** daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar;

**5.1.3.2.** müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlar;

**5.1.3.3.** müştərinin bank və ya qiymətli kağız hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlar;

**5.1.3.4.** hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkil olunması, habelə hüquqi şəxslərin alqı-satqısı ilə əlaqədar əməliyyatlar.";

**4.2.** 5.2-ci maddədə "vəkillər, notariuslar, hüquqi xidmət göstərən digər şəxslər və ya auditor xidməti göstərən" sözləri "monitorinqdə iştirak edən digər" sözləri ilə əvəz edilsin;

**4.3.** 5.4-cü maddədə "Hüquqi şəxs olan monitorinqdə" sözləri "Monitorinqdə" sözü ilə əvəz edilsin.

**5.** 6-cı maddə üzrə:

**5.1.** 6.1.1-ci maddədə "lotereya təşkilatçısı" sözləri "lotereya və idman mərc oyunları təşkilatçıları" sözləri ilə əvəz edilsin;

**5.2.** 6.1.6-cı maddədə "və hüquqi xidmət" sözləri ", hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri" sözləri ilə əvəz edilsin;

**5.3.** 6.3-cü maddədən "9 – 12-ci maddələrinin" sözləri çıxarılsın.

**6.** 7.5-ci maddə üzrə:

**6.1.** birinci və ikinci cümlələrdə "iştirakçılarının" sözündən sonra "və monitorinqdə iştirak edən digər şəxslərin" sözləri əlavə edilsin;

**6.2.** ikinci cümlədə "iştirakçıları" sözündən sonra "və monitorinqdə iştirak edən digər şəxslər" sözləri əlavə edilsin;

**7.** 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"8.1.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması zamanı, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin izlərini aşkar etdikdə, cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, əldə olunmuş sənədləri aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqana göndərməli, habelə bu barədə məlumatı maliyyə monitorinqi orqanına təqdim etməlidir.".

**8.** 9-cu maddə üzrə:

**8.1.** maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Eyniləşdirmə və verifikasiya tədbirləri".**

**8.2.** 9.2-ci maddədə "benefisiarın eyniləşdirilməsi" sözləri "benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası" sözləri ilə əvəz edilsin;

**8.3.** 9.2.5-ci maddədə "benefisiarla" sözü "benefisiar mülkiyyətçi ilə" sözləri ilə, "olmadığı aşkarlandıqda" sözləri "olmadığına dair şübhələr olduqda" sözləri ilə əvəz edilsin;

**8.4.** 9.3-cü maddədə "benefisiarın eyniləşdirilməsi" sözləri "benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası" sözləri ilə əvəz edilsin;

**8.5.** 9.8-ci maddənin birinci cümləsində və 9.14.3-cü maddədə "benefisiar" sözündən sonra "mülkiyyətçi" sözü əlavə edilsin;

**8.6.** 9.15-ci maddə üzrə:

**8.6.1.** "benefisiar" sözü "benefisiar mülkiyyətçi" sözləri ilə, "benefisiarla" sözü "benefisiar mülkiyyətçi ilə" sözləri ilə əvəz edilsin;

**8.6.2.** aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşgüzar münasibətlər yaradıldıqdan sonra müştəri və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilmirsə, müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr varsa, habelə müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün deyildirsə, monitorinq iştirakçıları işgüzar münasibətlərə xitam verməli və bu Qanunun 11-ci maddəsinə uyğun olaraq maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.";

**8.7.** 9.17-ci maddədə "benefisiarın" sözü "benefisiar mülkiyyətçinin" sözləri ilə əvəz edilsin.

**8.8.** 9.19-cu maddədə "benefisiara" sözü "benefisiar mülkiyyətçiyə" sözləri ilə əvəz edilsin.

**9.** 9-1-ci maddə üzrə:

**9.1.** 9-1.1-ci və 9-1.2-ci maddələrdə "benefisiarın" sözü "benefisiar mülkiyyətçinin" sözləri ilə əvəz edilsin;

**9.2.** 9-1.3-cü maddədə "benefisiarların" sözü "benefisiar mülkiyyətçilərin" sözləri ilə əvəz edilsin;

**9.3.** aşağıdakı məzmunda 9-1.4-cü maddə əlavə edilsin:

**"9-1.4.** Monitorinq iştirakçıları xarici dövlətlərin siyasi xadimləri ilə davam edən işgüzar münasibətləri mütəmadi olaraq nəzarətdə saxlamalı, eyniləşdirmə və verifikasiya sənədlərinin vaxtaşırı yeniləşdirilməsi üçün tədbirlər görməlidirlər.".

**10.** 9-2-ci maddənin ikinci cümləsinə "maliyyə monitorinqi orqanına" sözlərindən sonra ", auditora, cinayət təqibini həyata keçirən orqanlara" sözləri əlavə edilsin.

**11.** 10-cu maddə üzrə:

**11.1.** maddənin adına "Eyniləşdirmə" sözündən sonra "və verifikasiya" sözləri əlavə edilsin;

**11.2.** 10.1.1-ci və 10.1.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"10.1.1.** müştərinin, benefisiar mülkiyyətçinin və ya səlahiyyətli nümayəndənin eyniləşdirilməsi və verifikasiyası zamanı əldə olunmuş bütün məlumatlar və sənədlər, işgüzar yazışmalar və hesabın rəsmiləşdirilməsi üçün digər sənədlər – müştərinin hesabının bağlanılmasından və ya müştəri ilə hüquqi münasibətlərə xitam verildikdən sonra ən azı beş il;

**10.1.2.** məbləğ və valyuta növü də daxil olmaqla, hər hansı bir fərdi əməliyyatın yenidən bərpa edilməsinə imkan verəcək həcmdə, müştəri tərəfindən həyata keçirilmiş pul vəsaitləri və ya digər əmlakla ölkədaxili və ya beynəlxalq əməliyyatlara dair məlumatlar və sənədlər – əməliyyat başa çatdıqdan sonra ən azı beş il;";

**11.3.** aşağıdakı məzmunda 10.1.3-cü maddə əlavə edilsin:

**"10.1.3.** qeyri-adi əməliyyatların təyinatının və mahiyyətinin aydınlaşdırılması üçün aparılmış təhlilin nəticələri də daxil olmaqla, bu Qanunun 9-2-ci maddəsində nəzərdə tutulan əməliyyatlara dair sənədlər və məlumatlar – müştəri ilə hüquq münasibətlərinə xitam verildikdən sonra ən azı beş il.".

**12.** 11-ci maddə üzrə:

**12.1.** 11.1.5-ci maddədə "benefisiar" sözü "benefisiar mülkiyyətçi" sözləri ilə əvəz edilsin;

**12.2.** 11.3-cü maddədə "benefisiarın" sözü "benefisiar mülkiyyətçinin" sözləri ilə əvəz edilsin;

**12.3.** 11.6-cı maddənin ikinci cümləsinə "Monitorinq iştirakçılarından" sözlərindən sonra "və monitorinqdə iştirak edən digər şəxslərdən" sözləri əlavə edilsin.

**13.** 12-ci maddə üzrə:

**13.1.** maddənin adında, 12.1-ci, 12.2-ci və 12.3-cü maddələrində "Hüquqi şəxs olan monitorinq" sözləri "Monitorinq" sözü ilə əvəz edilsin;

**13.2.** aşağıdakı məzmunda 12.1.1-1-ci maddə əlavə edilsin:

**"12.1.1-1.** cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu risklərin idarə olunması və azaldılması üçün tədbirlərin görülməsi;";

**13.3.** 12.1.2-ci maddədə "benefisiarların" sözü "benefisiar mülkiyyətçilərin" sözləri ilə, "benefisiarın" sözü isə "benefisiar mülkiyyətçinin" sözləri ilə əvəz edilsin;

**13.4.** 12.1.6-cı maddə ləğv edilsin;

**13.5.** 12.1.8-ci maddədən "hüquqi şəxs olan" sözləri çıxarılsın;

**13.6.** 12.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"12.4.** Daxili nəzarət sistemi çərçivəsində tətbiq olunan tədbirlərin növü və həddi monitorinq iştirakçılarının fəaliyyətinin xarakterinə və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinə uyğun olmalıdır.".

**14.** 14-cü maddədə "onların əməkdaşları" sözləri "onların əmək və ya digər mülki hüquqi müqavilələr əsasında işləyən əməkdaşları" sözləri ilə əvəz edilsin.

**15.** 15-ci maddədə "benefisiar" sözü "benefisiar mülkiyyətçi" sözləri ilə əvəz edilsin.

**16.** 16.1-ci maddədə "11.1-ci maddəsində göstərilən məlumatların maliyyə monitorinqi orqanına" sözləri "9-2-ci və 11.1-ci maddələrində göstərilən məlumatların maliyyə monitorinqi orqanına, 9-2-ci maddəsində göstərilən məlumatların isə nəzarət tədbirlərinin həyata keçirilməsi ilə bağlı nəzarət orqanlarına" sözləri ilə əvəz edilsin.

**17.** 17.8-ci maddədə "limitinə, bu Qanunun 7.3-cü maddəsində nəzərdə tutulan dövlətlərin və bu Qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulan şəxslərin siyahısına" sözləri "ümumi məbləğinin minimal həddinə" sözləri ilə əvəz edilsin.

**18.** 20.1-ci maddəyə "maliyyələşdirilməsi," sözündən sonra "nəzarət tədbirlərinin həyata keçirilməsi," sözləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№736-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 567-VQD, 574-VQD nömrəli, 14 aprel tarixli 597-VQD nömrəli, 25 aprel tarixli 634-VQD nömrəli, 2 may tarixli 663-VQD nömrəli, 16 may tarixli 669-VQD nömrəli qanunları) 598-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 598.0.1-ci maddədə "benefisiarın" sözü "benefisiar mülkiyyətçinin" sözləri ilə əvəz edilsin.

**2.** 598.0.3-cü maddədə "hüquqi şəxs olan" sözləri "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**3.** 598.0.7-ci maddədə "görə –" sözü nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

**4.** 598.0-598.0.7-ci maddələr müvafiq olaraq 598.1-598.1.7-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 598.1.8-598.1.9-cu maddələr əlavə edilsin:

**"598.1.8.** monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən xarici dövlətlərin siyasi xadimləri ilə bağlı tələblərə əməl edilməməsinə;

**598.1.9.** monitorinq iştirakçıları tərəfindən onların xarici ölkələrdə yerləşən filialları və törəmə hüquqi şəxsləri ilə bağlı tələblərə əməl edilməməsinə görə –".

**5.** 598.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.".

**6.** Aşağıdakı məzmunda 598.2-ci maddə əlavə edilsin:

**"598.2.** Bu Məcəllənin 598.1-ci maddəsində nəzərdə tutulmuş xətanın qeyri-hökumət təşkilatı, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi, yaxud dini təşkilat tərəfindən törədilməsinə görə –

vəzifəli şəxslər səkkiz yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№737-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 422-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 567-VQD və 574-VQD nömrəli, 25 aprel tarixli 634-VQD nömrəli, 2 may tarixli 663-VQD nömrəli və 16 may tarixli 669-VQD nömrəli qanunları) 428-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 428.4-cü maddəyə "barədə" sözündən əvvəl ", həkim resepti olmadan buraxılan dərman vasitələrinin qəbulunun və tibbi texnikadan istifadənin əlavə təsirlə müşayiət olunması, həkimlə yaxud mütəxəssislə məsləhətləşmənin zəruriliyi" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 428.4-1-ci maddə əlavə edilsin:

**"428.4-1.** Dərman vasitələrinin pulsuz paylanması, satışı, ödənişli və ya ödənişsiz tibbi xidmətlərin göstərilməsi ilə müşayiət olunan reklam aksiyalarının keçirilməsinə görə –

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№ 738-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 491-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr, 331, 344; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 567-VQD və 574-VQD nömrəli, 25 aprel tarixli 634-VQD nömrəli, 2 may tarixli 663-VQD nömrəli, 16 may tarixli 669-VQD nömrəli qanunları) 122.2-ci, 339.1-ci, 340.1-ci maddələrində və 332-ci maddəsinin "Qeyd" hissəsində "icarə müqaviləsi" sözləri "icarə və ya digər əşya hüquqlarına dair müqavilə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№740-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 22-ci maddənin ikinci hissəsi üçüncü hissə hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Rayon (şəhər) məhkəməsi bir hakimdən ibarətdirsə, həmin hakim eyni zamanda bu məhkəmənin sədri təyin olunur.”.

**2.** 23-cü maddənin ikinci hissəsi ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2017-ci il
№747-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 365-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1410 nömrəli Fərmanı) 3-cü hissəsinin üçüncü abzasında “167-2,” rəqəmlərindən sonra “167-3,” rəqəmləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 iyul 2017-ci il
№ 1511

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 206 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 206 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 622; 2002, № 8, maddə 478; 2005, № 4, maddə 299; 2006, № 2, maddə 92; 2008, № 9, maddə 798; 2011, № 7, maddə 644; 2014, № 5, maddə 476) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Dördüncü abzasdan "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın, həmin abzasda "öz səlahiyyətləri daxilində" sözləri "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanına uyğun olaraq" sözləri ilə, "Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi" sözləri "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ilə əvəz edilsin.

**2.** Beşinci abzasda "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 avqust 2017-ci il
№1579

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2006, № 2, maddə 92; 2010, № 4, maddə 289; 2011, № 4, maddə 272, № 5, maddə 381; 2014, № 7, maddə 818; 2015, № 6, maddə 695, № 10, maddə 1111; 2016, № 6, maddə 1052) aşağıdakı dəyişikliklər edilsin:

**1.** I hissə üzrə:

**1.1.** birinci abzasdan "milli təhlükəsizlik," sözləri çıxarılsın və həmin abzasa "nazirlikləri," sözündən sonra "Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti," sözləri əlavə edilsin;

**1.2.** ikinci abzasda "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

**1.3.** üçüncü abzasda "milli təhlükəsizlik və daxili işlər nazirlikləri" sözləri "Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

**1.4.** dördüncü abzasda "milli təhlükəsizlik və daxili

işlər nazirlikləri," sözləri "Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti," sözləri ilə əvəz edilsin;

**1.5.** yeddinci abzasda "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

**1.6.** doqquzuncu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və bu hissəyə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"öz təhlükəsizliyini təmin etmək məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirir.".

**2.** II hissədən "milli təhlükəsizlik," sözləri çıxarılsın və həmin hissəyə "nazirliklərinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə" sözləri əlavə edilsin.

**3.** IV hissə üzrə:

**3.1.** birinci cümlədə "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

**3.2.** ikinci cümlədə "Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin" sözləri "Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 avqust 2017-ci il
№1580

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair

2 iyun 2017-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri İlqar Cəfərovun, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə mayoru Fərəc Sayılovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor müdiri Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının professoru, hüquq elmləri doktoru Şəhla Səmədovanın,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirovun və Bakı Apellyasiya Məhkəməsinin hakimi Mirzəli Abbasovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu verərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulan cinayətlərin subyektlərinin müvafiq olaraq hərbi hissəni və ya xidmət yerini ilk dəfə üç gündən az müddətə və ilk dəfə on gündən az müddətə tərk etmələri, habelə üzrlü səbəblər olmadan öz xidmət yerlərinə vaxtında qayıtmamaları faktları üzrə cinayət işinin başlanmasının rədd edildiyi və həmin şəxslər tərəfindən altı ay və bir il ərzində təkrarən eyni əməllər törədildiyi halda, onların Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyünün şərh olunmasını xahiş etmişdir.

Sorğuda göstərilir ki, təkrarlığın tövsifedici əlamət kimi nəzərdə tutulduğu Cinayət Məcəlləsinin Xüsusi

hissəsinin müvafiq maddələrinin tətbiqi ilə bağlı vahid istintaq və məhkəmə təcrübəsi olsa da, əməlin təkrar törədilməsinin cinayət tərkibinin əlaməti kimi müəyyən edildiyi maddələrdə nəzərdə tutulan əmələ cinayət-hüquqi qiymət verilməsi ilə bağlı məhkəmə təcrübəsində ziddiyyətlər mövcuddur. Belə ki, bir sıra hallarda ibtidai araşdırma zamanı çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçuların hərbi hissəni və ya xidmət yerlərini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədikləri faktı təsdiq olunsa da, onların həmin hərəkətləri ilk dəfə üç gündən az müddətə törətdikləri müəyyən edilir. Bu zaman ibtidai araşdırma orqanları tərəfindən həmin şəxslərin əməllərində cinayət tərkibi olmadığı üçün barələrində cinayət işinin başlanılması rədd edilir. Sonradan altı ay ərzində həmin şəxslər təkrar öz hərbi hissələrini və ya xidmət yerlərini özbaşına tərk etdikləri, yaxud üzrlü səbəblər olmadan öz xidmət yerlərinə vaxtında gəlmədikləri halda onlar barəsində olan cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar ləğv edilir, əməlləri Cinayət Məcəlləsinin 333.1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibini yaratdığına görə onlara həmin maddə ilə ittiham elan olunur. Eyni qayda həmin Məcəllənin 333.3-cü maddəsində nəzərdə tutulan əməli törədən şəxslər barəsində də tətbiq edilir.

Sorğuda eyni zamanda qeyd edilir ki, göstərilən əməllərin ilk dəfə törədilməsinə görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarların ləğv edilməsi təcrübəsi həmin qərarların preyudisiallığını müəyyən edən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 39.1.7 və 65.1-ci maddələrinin tələblərindən irəli gəlir. Lakin bəzi hallarda işə baxan məhkəmələr ibtidai istintaq orqanlarının qeyd edilən mövqeyi ilə razılaşmır.

Sorğuverənin fikrincə, cinayət işinin başlanmasının rədd edilməsindən sonra təkrar eyni əməllərin törədilməsi halında onların əməllərinə hüquqi qiymət verilməsi ilə bağlı vahid məhkəmə təcrübəsinin olmaması Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin tətbiqi sahəsində ziddiyyətlər yaradır.

Sorğu ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) Preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti bəyan edilmişdir. Bu niyyətin həyata keçirilməsi məqsədilə dövlət vətəndaşlara münasibətdə vəzifələr müəyyən etmişdir.

Konstitusiyanın IV fəslində nəzərdə tutulan vətəndaşların əsas vəzifələrindən biri də vətəni müdafiədir. Konstitusiyanın 76-cı maddəsinin I hissəsinə görə, vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

Hərbi xidmət keçmənin qaydaları "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Hərbi Qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən olunur. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrdə müəyyən olunmuş hərbi intizama ciddi riayət etməlidirlər. Hərbi intizama ciddi riayət olunmaması cinayət qanunu ilə mühafizə olunan ictimai münasibətlərin pozulması ilə nəticələnir. Bu kateqoriyadan olan cinayətin obyekti qanunvericiliklə müəyyən edilən hərbi xidmət keçmə qaydalarıdır.

Hərbi xidmət əleyhinə olan cinayətlər sırasında Cinayət Məcəlləsinin 333-cü maddəsində müəyyən olunmuş hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri xüsusi yer tutur.

Cinayət Məcəlləsinin 333.1-ci maddəsinə əsasən, çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda və ya üç gündən az olsa belə, eyni əməllər altı ay ərzində təkrar törədildikdə bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

Həmin Məcəllənin 333.3-cü maddəsinə görə, zabit heyətindən olan şəxsin, gizirin, miçmanın, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçunun və ya kontrakt üzrə xidmət edən şəxsin hissəni və ya xidmət yerini özbaşına tərk etməsi, habelə üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında qayıtmaması on gündən artıq, lakin bir aydan çox olmadıqda, yaxud bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olduqda iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd etmək lazımdır ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərhi ilə bağlı iki qərar qəbul edilmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Res-

publikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair" 26 oktyabr 2001-ci il tarixli Qərarında göstərilmişdir ki, "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 2-ci maddəsinin birinci hissəsində göstərilən şəxslər öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsinə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsinə görə Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə cinayət məsuliyyəti daşıyırlar.

Özbaşına tərk etmə dedikdə, komandirin (rəisin) icazəsi olmadan hərbi qulluqçunun hərbi hissənin ərazisini və ya xidmət yerini buraxıb getməsi başa düşülür. Vaxtında gəlməmə isə hərbi hissənin ərazisindən və ya xidmət yerindən qanuni əsasla buraxılmış hərbi qulluqçunun hərbi hissəyə, yaxud xidmət yerinə üzrlü səbəblər olmadan müəyyən edilmiş müddətdə gəlməməsindən ibarətdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 18 iyul 2005-ci il tarixli Qərarında qeyd olunmuşdur ki, hərbi hissəni özbaşına tərk etmənin əvvəli hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini tərk etdiyi andan, xidmət yerinə vaxtında gəlməmənin əvvəli isə qayıtma müddətinin bitdiyi andan hesablanır. Həmin cinayət hərbi qulluqçunun hərbi hissəyə və ya xidmət yerinə gəldiyi, yaxud onun tutulub saxlanıldığı andan bitmiş hesab olunur.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin dispozisiyasında əməlin müəyyən müddət ərzində təkrar törədilməsi hərbi hissəni özbaşına tərk etmə cinayətinin obyektiv cəhətinin tərkib əlaməti kimi nəzərdə tutulmuşdur. Belə ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə Cinayət Məcəlləsinin 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti o zaman yaranır ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməmə müddəti üç gündən artıq, lakin on gündən çox olmasın, yaxud üç gündən az olsa da, eyni əməllər altı ay ərzində təkrar törədilmiş olsun.

Bu Məcəllənin 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti hissəni və ya xidmət yerini özbaşına tərk etmənin və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında qayıtmamanın on gündən bir ayadək müddətdə davam etməsindən, yaxud üç gündən on günədək müddətdə, lakin bir il ərzində təkrar törədilməsindən ibarətdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, sorğuda qaldırılan məsələnin düzgün həll edilməsi məqsədilə cinayətlərin təkrar törədilməsi anlayışına bir daha nəzər yetirilməsi vacibdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 18 mart 2013-cü il tarixli Qərarında göstərilmişdir ki, hüquq nəzəriyyəsində "təkrarlıq" termini geniş və dar mənalarda istifadə olunur. Geniş mənada təkrarlıq, cinayətin əvvəllər hər hansı cinayət törətmiş şəxs tərəfindən törədilməsi deməkdir. Belə təkrarlıq həm də ümumi təkrarlıq adlanır. Təkrarlığın bu cür geniş anlayışı özündə həmcins və müxtəlif növlərdən olan bir neçə cinayətin törədilməsini əks etdirən "cinayətlərin çoxluğu" terminində ifadə olunur.

Qanunvericiliyin tələblərinə müvafiq olaraq, çoxluğu təşkil edən bütün cinayətlər eyni şəxs tərəfindən törədilməlidir və təqsirləndirilən şəxsin cinayətlərdə hansı rolu (icraçı, təşkilatçı, təhrikçi və ya köməkçi) yerinə yetirməsi heç bir məna kəsb etmir. Əgər şəxs törətdiyi əmələ görə cinayət məsuliyyətindən azad olunubsa və ya törətdiyi hərəkətlərə görə məhkumluğu ödənilibsə, habelə cinayət məsuliyyətinə cəlb olunma müddəti başa çatıbsa, çoxluğun müəyyən edilməsi zamanı bu əməllər nəzərə alınmır.

Beləliklə, cinayətlərin çoxluğu dedikdə, təqsirli şəxs tərəfindən cinayət məsuliyyətinə səbəb olan ardıcıl əməllərin törədilməsi və ya əvvəllər törədilmiş hərəkətlərə görə cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı məhdudiyyət müddəti ərzində yeni cinayətlərin törədilməsi halları başa düşülür.

Cinayət qanunvericiliyində cinayətlərin çoxluğu termininin adı çəkilməsə də, Cinayət Məcəlləsinin 16, 17 və 18-ci maddələrində cinayətlərin çoxluğuna aid olan cinayətlərin təkrar törədilməsi, cinayətlərin məcmusu, cinayətlərin residivi və onun növləri ilə bağlı olan məsələlər tənzimlənir.

Təkrarlıq institutu cinayətlərin çoxluğunun ən mürəkkəb formasıdır və Cinayət Məcəlləsində dar mənada istifadə olunur.

Həmin Məcəllənin 16-cı maddəsində təkrarlığın iki müstəqil növü müəyyən olunmuşdur:

– Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki və ya iki dəfədən çox törədilməsi (Cinayət Məcəlləsinin 16.1-ci maddəsi);

– Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda həmin Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi (Cinayət Məcəlləsinin 16.2-ci maddəsi).

Həmçinin Cinayət Məcəlləsinin 61-ci maddəsində cinayətlərin təkrar törədilməsi cəzanı ağırlaşdıran hallara aid edilir.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, təkrarlıq yalnız o hallarda yaranır ki, əməllərin hər birində müstəqil cinayətin tərkib əlamətləri olsun, yəni ayrılıqda götürülmüş hər bir əməldə cinayət tərkibi olmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, hərbi qulluqçunun üç günədək müddətdə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməsi, yaxud üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi cinayət sayılmır və yalnız intizam məsuliyyəti yaradır ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 18 iyul 2005-ci il tarixli Qərar).

Beləliklə, qanunverici tərəfindən Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulan əməllərin təkrar törədilməsi cinayət tərkibini yaradan kriminallaşdırıcı əlamət kimi müəyyən edilib və belə təkrarlığın Cinayət Məcəlləsinin 16 və 61-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin təkrar törədilməsi və cəzanı ağırlaşdıran hal kimi qəbul edilməsi ilə heç bir əlaqəsi yoxdur.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərhi ilə bağlı əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqeyə uyğun olaraq aşağıdakıları qeyd edir.

Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin dispozisiyasında göstərilən hərəkəti (hərəkətsizliyi) hərbi qulluqçunun ilk dəfə etməsi onun barəsində aparılan ibtidai araşdırmanın cinayət işinin başlanmasının rədd edilməsi və ya onun bu hərəkətinə (hərəkətsizliyinə) görə intizam tənbehi alması ilə nəticələnməsinə baxmayaraq, ikinci dəfə müvafiq olaraq altı ay və bir il ərzində eyni əməlləri təkrar törətməsi cinayət məsuliyyətinə səbəb olacaqdır.

Yalnız cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda intizam və inzibati xətaların təkrar törədilməsi cinayət hesab edilir.

Xətanın çərçivəsini qanunverici müəyyən edir və qanunverici hansı növ xətanın təkrar törədilməsinin dövlət mənafelərinə hansı dərəcədə zərər vurması ehtimalının reallığından çıxış edərək onun cinayət hesab olunmasını israr edir.

Beləliklə, qanunverici hərbi hissələrin döyüş qabiliyyətinin yüksək hərbi intizamla bağlı olduğunu nəzərə alaraq, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş müddətlərdə göstərilən əməllərin təkrar törədilməsini cinayət hesab etmişdir.

Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulan əməllərin törədilməsinə görə cinayət işinin başlanması və cinayət işinin başlanmasının rədd edilməsi qaydaları cinayət-prosessual qanunvericiliyinə uyğun həyata keçirilir.

Cinayət-Prosessual Məcəlləsinin 46.3-cü maddəsinə görə, cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır.

Həmin Məcəllənin 212-ci maddəsinə uyğun olaraq, cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır. Təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər. Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərardan verilmiş şikayət üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror göstərilən qərarı ləğv edir, 10 (on) gündən artıq olmayan müddətdə əlavə yoxlama keçirilməklə və yaxud keçirilməməklə cinayət işinin başlanması haqqında qərar qəbul edir və onu ibtidai istintaqın aparılması üçün müstəntiqə göndərir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır.

Göstərilən cinayətlər üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı ləğv etmək hüququnun olması ilə bağlı sorğuverənin qənaətinə gəldikdə isə qeyd etmək lazımdır ki, cinayət-prosessual qanunvericiliyi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya yuxarı prokurora yalnız qanunsuz və əsassız qərarları ləğv etmək hüququ vermişdir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 84 və 85-ci maddələrində prokuror və müstəntiqin hüquq və vəzifələri sadalanmışdır. Həmin Məcəllənin 84.5.8-ci maddəsinə görə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təhqiqatçının və ya müstəntiqin qanunsuz

və əsassız qərarlarını ləğv etmək hüququna malikdir. Əgər prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı qanunsuz və əsassız hesab edirsə, həmin qərarı ləğv edir və 10 gün müddətində cinayət işinin başlanması haqqında qərar qəbul edir.

Sorğuverən Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulan cinayət faktları üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarın ləğv edilməsi təcrübəsinin mövcudluğunu Cinayət-Prosessual Məcəlləsinin 39.1.7-ci maddəsi ilə əlaqələndirmişdir. Həmin maddəyə görə, şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir).

Bununla bağlı qeyd edilməlidir ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.7-ci maddəsi şəxs barəsində yenidən cinayət işi başlanması üçün yalnız eyni ittiham üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərarın mövcudluğunu istisna edir. Həmin Məcəllənin 7.0.20-ci maddəsinə görə, ittiham – bu Məcəllədə müəyyən olunmuş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsidir.

Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddəsində nəzərdə tutulan ilk dəfə və təkrar törədilən cinayətlər isə müxtəlif vaxtlarda törədilən konkret hüquqpozmanı nəzərdə tutur, cinayətin obyektiv cəhətinə görə həmin əməllər bir-birindən fərqlənir. Əgər şəxs tərəfindən törədilən əməldə cinayət tərkibi olmadığına görə (hərbi hissədən yayınma üç gündən azdırsa və s.) cinayət işinin başlanması rədd edilmişdirsə, yenidən həmin əməlin törədilməsinə görə cinayət işinin başlanması üçün əvvəlki iş üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın ləğv edilməsi zərurəti yoxdur. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 65.1-ci maddəsi də müəyyən edir ki, cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Artıq qeyd olunduğu kimi, əməlin ilk dəfə törədilməsi ilə həmin əməlin təkrar törədilməsi eyni məsələ hesab edilə bilməz.

Beləliklə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror müstəntiq və ya təhqiqatçı tərəfindən qəbul edilən hər bir qərarın qanuniliyini yoxlayır və onların qanunsuz və ya əsassız olduğunu aşkar etdikdə, belə qərarı ləğv edir. Bu cür yoxlamaları prokuror həm öz təşəbbüsü ilə, həm də müstəntiq və ya təhqiqatçının qərar və ya hərəkətlərindən verilmiş şikayət üzrə həyata keçirir. Qanunvericilikdə qanuni və ya əsaslı qərarların ləğv edilməsi halı nəzərdə tutulmamışdır.

Yuxarıda göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Cinayət-Prosessual Məcəlləsinin 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/04**

27 yanvar 2017-ci il Bakı şəhəri

**Baş Prokurorluq üzrə "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə" 14 fevral 2007-ci il tarixli, 10/13 nömrəli əmrə dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq hüquqi əməkdaşlıq sahəsində işinin səmərəliliyinin daha da artırılması, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsinin səmərəliliyinin yüksəldilməsi, beynəlxalq hüquqi yardım çərçivəsində tapşırıqların və ekstradisiya məsələlərinin həlli istiqamətində zəruri tədbirlərin dəqiq və hərtərəfli yerinə yetirilməsinin təmin edilməsi məqsədi ilə «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 6 və 10-cu maddələrini rəhbər tutaraq,

**Ə M R E D İ R Ə M:**

**1.** Əmrin 4-cü bəndinin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Sorğuların (istintaq tapşırıqlarının) Azərbaycan Respublikasının Konstitusiyasına, tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, qanunlara uyğun olub-olmaması, sorğu edən xarici dövlətin qanunvericiliyinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olub-olmaması yoxlanılaraq İdarə tərəfindən icrası və ya icra üçün aidiyyəti üzrə göndərilməsi təmin edilsin. Sorğular İdarə tərəfindən icra olunarkən prosessual hərəkətlərin Azərbaycan Respublikası CPM-nin 84-85-ci və digər müvafiq maddələrinə əsasən aparılması təmin edilsin."

**1.1.** Əmrin 4-cü bəndinin ikinci abzasının ikinci cümləsində "təxirəsalınmadan" sözü "5 iş günü müddətində" sözləri ilə əvəz edilsin.

**2.** Əmrin 5-ci bəndinin birinci abzasında "Tabe prokurorluqların" sözlərindən əvvəl "İdarənin və" sözləri əlavə olunsun.

**2.1.** Əmrin 5-ci bəndinin birinci abzasında "10 (on) gün" sözləri "30 (otuz) iş günü" sözləri ilə əvəz edilsin.

**2.2.** Əmrin 5.3-cü bəndinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İdarənin prokuroru tərəfindən icra edilmiş sənədlərin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn tələblərə uyğun icra olunduqdan sonra sorğu edən dövlətə göndərilməsi təmin edilsin."

**3.** Əmrin 6-cı bəndinin ikinci abzasında "cinayət məcəlləsindən" sözləri "Cinayət və Cinayət-prosessual məcəllələrindən" sözləri ilə əvəz edilsin.

**4.** Əmrin 8-ci bəndinin birinci abzasından "Azərbaycan Respublikasının vətəndaşı olan" sözləri çıxarılsın.

**5.** Əmrin 9-cu bəndində "həlli" sözündən sonra "İdarənin və" sözləri əlavə edilsin, "rəisinin" sözü "rəislərinin" sözü ilə əvəz edilsin.

**6.** Əmrin mətni üzrə "DİN Miqrasiya Xidməti" sözləri "Dövlət Miqrasiya Xidməti" sözləri ilə əvəz edilsin.

**7.** Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun bütün struktur qurumlarına göndərilsin və "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru,
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/13**

01 mart 2017-ci il Bakı şəhəri

## "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında

Son illərdə ölkəmizin dövlət orqanlarında kargüzarlıq işini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı mühüm tədbirlərin görülməsi, Azərbaycan Respublikası Prezidentinin 23.06.2016-cı il tarixli Fərmanları ilə "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" və "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq qaydalarının müəyyən edilməsini, prokurorluğun bu sahədə fəaliyyətini nizama salan yeni Təlimatın təsdiqlənməsini zəruri etmişdir.

Qeyd olunanlarla əlaqədar, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

**2.** Baş Prokurorluğun idarə və şöbə rəisləri, habelə bütün tabe prokurorlar Təlimatın rəhbərlik etdikləri işçilər tərəfindən öyrənilməsini və onun tələblərinə dönmədən əməl olunmasını təmin etsinlər.

**3.** Təlimatın icrasına nəzarət Müraciətlərə baxılması idarəsinə həvalə edilsin.

**4.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 04.12.2001-ci il tarixli 08/160 nömrəli əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat" ləğv edilsin.

**5.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və "Azərbaycan Prokurorluğu" jurnalında dərc olunsun.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru,
I dərəcəli dövlət ədliyyə müşaviri

**Qeyd:** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın mətni çap olunmuş və prokurorluq orqanlarına göndərilmişdir.